I have indeed warmest memories of my stay in Baku, of your warm-hearted reception and of the conference. I will be happy to be invited to another similar event in Baku.
With best regards,

Mikhail Sheftel (*Boğaziçi University, Istanbul, Turkey*)

***





MAGİSTRLƏR DİSSERTASİYA MÜDAFİƏ ETDİLƏR

THESES DEFENSE OF MASTER STUDENTS

Mayın 12-də Humanitar və sosial elmlər fakültəsinin magistr tələbələrinin tezislərinin müdafiəsi keçirildi. Xəzər Universitetinin Elmi işlər üzrə prorektoru dosent İradə Xəlilova (sədr) müdafiəni açıq elan etdi. Müdafiə şurasının üzvləri – Humanitar və sosial elmlər fakültəsinin dekanı dosent Cabir Xəlilov, Dr.Ləman Verdiyeva, dosent Müşviq Mustafayev, doktorant Mələk Kərimova, şuranın katibi isə Nilufər Əlizadə idilər.

Psixologiya departamentinin magistr tələbələri –Aydan İbrahimova, Aysel Məmmədzadə, Fəridə Əsədova, Gülər Zamanzadə, İlahə Muradova, Qədəmli İsmayılova, Nigar Musayeva, Rəhimə Eldarova, Təhminə Rəsulzadə, Zeynəb Həcəmova, Nigar Mürxdəsənova dissertasiyalarını uğurla müdafiə etdilər.

On May 12, thesis defence of graduate students of the School of Humanities and Social Sciences, was held. Assoc.Prof. Irada Khalilova (Chair), Vice-rector for Research of Khazar University, declared the defence process open. The members of defence counsil included Assoc.Prof. Jabir Khalilov, Dean of the School of Humanities and Social Sciences; Dr. Laman Verdiyeva, Assoc.Prof.; Mushfig Mustafayev and PhD student Melek Karimova. Nilufar Alizadeh was the secretary of the council.

Graduate students of the Department of Psychology - Aydan Ibrahimova, Aysel Mammadzade, Farida Asadova, Guler Zamanzade, Ilaha Muradova, Gadamli Ismayilova, Nigar Musayeva, Rahima Eldarova, Tahmina Rasulzade, Zeynab Hajamova, and Nigar Mukhdasanova defended their theses successfully.

"TƏK SAĞLAMLIQ: PROBLEMLƏR VƏ ONLARIN HƏLLİ" KONFRANSI RUSİYA MƏTBUATINDA

"ONE HEALTH: PROBLEMS AND SOLUTIONS" CONFERENCE IN RUSSIAN MEDIA

2018-ci il iyunun 18-də Rusiyanın *семерница.рф* saytı cari ilin iyunun 1-i və 2-də Xəzər Universitetində keçirilmiş "Tək sağlamlıq: problemlər və onların həlli" I Beynəlxalq konfransı haqqında material yayımlamışdır.

Materialı bu link vasitəsilə oxumaq olar:

http://семерница.рф/news/rossiyskie-novosti/odno-zdorove-kak-deviz-sotrudnichestva-veterinarnykh-i-meditsinskikh-spetsialistov/

On June 18, 2018, *семерница.рф*, a Russian website, posted news about "One Health: problems and solutions", 1st International Conference, held on June 1-2 at Khazar University.

More detailed information is available at:

http://семерница.рф/news/rossiyskie-novosti/odno-zdorove-kak-deviz-sotrudnichestva-veterinarnykh-i-meditsinskikh-spetsialistov/



ŞƏHRİYAR VƏ "HEYDƏRBABAYA SALAM"IN ƏZƏMƏTİ

Hamlet İsaxanlı

18 sentyabr İranda (İran Azərbaycanında) "Milli şeir günü"dür, böyük İran və Azərbaycan şairi Məhəmmədhüseyn Şəhriyarın doğum tarixi dəqiq bilinmir (1905-6?), dünyasını dəyişmə tarixi isə 1988, 18 sentyabrdır. Digər tərəfdən, 18 sentyabr Azərbaycan Respublikasında "Milli musiqi günü"dür, böyük Üzeyir bəy Hacıbəyli 1885-ci il sentyabrın 18-də dünyaya gəlmiş, 1948-ci ildə - Şəhriyardan 40 il əvvəl vəfat etmişdir. İki Azərbaycanda ilin eyni günündə iki məşhur şəxsimizlə bağlı iki müxtəlif milli gün müxtəlif şəkildə bayram edilir, müxtəlif mərasimlər düzəldilir. Bu, eyniliyimizin və eyni zamanda fərqli olduğumuzun daha bir nümayişi deyilmi?!

***

Məhəmmədhüseyn Təbrizin Bağmeşəli səmtində anadan olmuşdur. Şair kimi Behcət təxəllüsü ilə başlamış, sonra Şəhriyar təxəllüsünü götürmüşdür (Hafizdən fal açmaqla). Şəhriyarın həyatı dəqiq faktlarla deyil, rəvayətlərlə, yuxugörmələrlə, müxtəlif şəxslərin söylədiyi ziddiyyətli xatirələrlə, fəlaçmalarla və ...bəlağətlə doludur. Bunun bir səbəbi Şəhriyarın artıq sağlığında əfsanələşməsi və haqqında müxtəlif rəvayətlərin yayılmasıdırsa, digəri, sözsüz ki, tədqiqatçıların baxış və üslubları ilə bağlıdır. Qeyd etdiyim kimi, doğum ili dəqiq bilinmir. İlk kitabının Tehranda nəşr olunma tarixi (daha çox 1931 deyirlər), atasının ölüm tarixi (Şəhriyarın xatirələrinə görə 1934-cü il, Tehran) dəqiq məlum deyil. Şirazlı Sürəyya ilə sevgisi haqqında da çox rəvayətlər danışılır. Özündən sonra əsərlərinin nəşrində edilən təhriflər və tərcümədə təhriflər edildiyindən söz açmaq mümkündür.

Şəhriyarın atası Hacı Mirağa Xoşginabi vəkil-hüquqçu idi, xeyirxah insan olub ("Mənim atam süfrəli bir kişiydi / El əlindən tutmaq onun işiydi"). Şəhriyarın uşaqlıq xatirələrinin oyanmasında, türkcə şeir yazmağa başlamasında mühüm rol oynamış anası Kövkəb xanım 1952-ci ildə Tehranda vəfat etmişdir. Şəhriyar Xoşginab kəndində ibtidai məktəbdə və Təbriz şəhərində bir neçə mədrəsədə oxumuş, sonra Tehrana getmiş (deyilənə görə 1921-ci ildə), Tehranda tanınmış şair, yazıçı və musiqiçilərlə tanış olmuş, dostlaşmışdır. Tehranda dərülfunundə oxumuş, sonra (1924-cü ildə) tibb üzrə ali təhsilə başlamışdır, lakin son tədris ilində universiteti buraxmışdır (bunun sürgünlə əlaqəli olduğu deyilir). Şəhriyar Sürəyyə xanımı sevmiş, Sürəyyanı zorla başqasına (şahın qohumuna) vermişlər, hər ikisi bu eşqi özləri ilə yaşatmışlar. Sürəyyə ilə bağlı Şəhriyarın Tehrandan Nişapur və Məşhəd tərəflərə sürgün edildiyi deyilir (1930-35-ci illərdə; əhvalat tam dəqiq bilinmir, 1935-ci ildə Tehrana qayıtmışdır). Şəhriyarın əvvəlcə farsca yazdığı, sonra Azərbaycan türkcəsində səsləndirdiyi - bu, onun bir şeiri iki dildə yazmaq barədə yeganə təcrübəsidir - "Behcətabad xatirəsi" (Tehranda göl və park adı) qəzəli həmin dövrdəki görüş intizarından bəhs edir (Şəhriyar Sürəyyə ilə son dəfə görüşmək istəmiş, Sürəyyanın anası qızının Behcətabad parkına gələcəyini vəd etmiş, Şəhriyar gözləmiş, lakin Sürəyyə gəlməmişdi):

...Yatmış hamı, bir Allah oyaqdı, daha bir mən,
Məndən aşağı kimsə yox, ondan da yuxarı.
...Qorxum budu, yar gəlməyə birdən yarıla sübh,
Bağrım yarılar, sübhüm, açılma, səni tanı!
...Eşqi var idi Şəhriyarın güllü, çiçəkli,
Əfsus, qara yel əsdi, xəzan oldu baharı.

Yalnız üç beytini gətirdiyimiz bu qəzəl Şəhriyarın poetik ustalığını gözəl nümayiş etdirən və sadə olduğu qədər də dərin duyğuları gözəl ifadə edən şeirlərdən biridir!

Şəhriyar 1953-cü ildə əmisi qızı Əzizə ilə evləndi; Şəhriyar və Əzizə xanımdan bir oğul və iki qız qalmışdır. Şəhriyar 1953-cü ildə Tehrandan Təbrizə köçmüş, Tehrana gedib-gəlmiş, 1973-74-cü illərdə bir qədər Tehranda yaşasa da, yenə Təbrizə dönmüşdür (1974-cü ildə Əzizənin Tehranda ölümündən sonra). Şəhriyar xəstələnmiş, müalicə üçün Tehrana aparılmış, 1988-ci ildə

orada dünyasını dəyişmişdir. Ana-atası Qumda, həyat yoldaşı Tehranda torpağa verilmiş, lakin Şəhriyar özünün Təbrizdə dəfn olunmasını vəsiyyət etmiş və Təbrizdə, Sürxabda, Məqbərətü'ş-Şüəradə (Şairlər məqbərəsində) torpağa tapşırılmışdır.


***

Şəhriyar İranın böyük şairi kimi şöhrət qazanıb, klassik İran poeziyasının yeni layiqli davamçısı sayılıb, şeirlərinin böyük əksəriyyəti farsadır, farsca yazılmış əsərləri küllisi irihəcmli və çoxcildlidir. Bu əsərlərin və ya onların seçilmiş hissəsinin Azərbaycan türkcəsinə sətri/filoloji tərcümə edilməsi yaxşı olardı; bu, Şəhriyar irsinin Azərbaycanlı tədqiqatçılar tərəfindən daha dərindən öyrənilməsinə, poetik tərcümə zamanı ciddi təhriflərə yol verilməməsinə və yeni poetik tərcümələrin yaranmasına kömək edərdi. Şəhriyar 20-ci əsr İran ədəbiyyatında əsasən klassik divan ədəbiyyatına xas olan qəzəl və qəsidə ustası kimi yer tutmuş, onun haqqında yeni dövrün Hafizi kimi fikirlər yayılmışdır. Bu yazı əsasən Şəhriyarın Azərbaycan türkcəsində yazdığı (sayı yüzü keçməyən) şeirlərdən təsirlənərək yazılmış, müəyyən müqayisə və paralellərə qısa nəzər salınmış, yazını hər kəsin oxuya bilməsi üçün onun bütövlüyünə səy edilmişdir.

***

Firdovsi, Nizami, Sədi, Mövlanə Cəlaləddin Rumi, Hafiz, Cami kimi nəhənglərin ilhamı fars dilində möhtəşəm poeziya aləminin yaranmasına səbəb olmuşdur. Çox zəngin klassik poeziya məkanı olsa da, 20-ci əsrdə İranda da yenilikçilərin, Avropa mədəniyyətini əxz etmək, "Avropanı Şərqə gətirmək" tərəfdarlarının meydana çıxması təbiidir. İran poetik dünyasında yenilikçi cərəyanın lideri Mazandaranlı (Yuş`lu) Nima Yuşic (1895/96-1960) avropasayağı yazmaq, sərbəst vəzndə yazmağa çalışmaq, tək özünüz üçün deyil, dünya üçün yazmaq məsələsini ortaya atmış, bu üslubda yazmış və məşhurlaşmışdır. Fransız poeziyasını orijinalda öyrənən və ondan təsirlənərək yazan Nimanı modern İran poeziyasının banisi sayırlar. Əruz və sərbəst şeir tərzlərini bir-birinə qovuşduran və şeirlərində canlı danışıq dilinin gücünü göstərən Nima, həmçinin, poetik yaradıcılıq üsulları və psixologiyası üzrə əsərlər müəllifidir. Nima məktəbinin, modern İran poetik məktəbinin davamçıları arasında Əhməd Şamlu (1925-2000) xüsusi seçilir. Nimanın poetik ilham və gözəlliyi tərənnüm edən "Əfsanə" poeması (1921-22) məşhur olmuşdu. Şəhriyar onun təsiri ilə "İki cənnət quşu"nu yazmışdı. Amma, Şəhriyar, bir qədər yenilikçi təsirlərə məruz qalsa da, əsasən klassik şərq şeir üslubunda yazmış, sevilən, əzbərlənən şöhrətli milli şair olmuşdur. Şəhriyarın yenilikçilərlə arası dəymiş, Şəhriyarın qəzəlxanlığı və ictimai-siyasi baxışları yenilikçilərin tənqidinə məruz qalmışdır. Rza Bərahəni Şəhriyar əleyhinə qalxmışdı: "Şəhriyar əbədilik keçmişdə qalıb, Şəhriyar yalnız yaxşı bir qəzəlxandır" (1972). Deyilənə görə, yenilikçilərin çoxu solçu, Şəhriyar isə nə sağçı, nə solçuidi (?). Şəhriyarı saray şairi sayanlar da olmuşdur.

Onu da qeyd etmək yerinə düşərdi ki, Türkiyə vasitəsilə fransız poetik ənənələri ilə tanış olan Mirzə Tağıxan Rafət (1887-89?-1920) sərbəst şeirlər yazsa da (əsasən farsca, qismən türkcə və fransızca), İranda türkcə modern şeir/sərbəst şeir cərəyanının lideri, yəqin ki, onun davamçısı sayılan və özü də Türkiyədə ali təhsil almış Həbib Sahir (1903-1988) olmuşdur (Həbib Sahir və Şəhriyar mədrəsə yoldaşı olublar). Bu yerdə bənzər hadisələrin daha əvvəl şimalda baş verməsini də yada salmaq olar. Abbas Səhhət (1874-1918) rus və qərb ədəbiyyatından etdiyi tərcümələrinə - "Məğrib günəşləri" kitabına (1912) yazdığı giriş sözündə bir məqsədinin qərblilərin necə şeir yazdığını göstərmək olduğunu söyləmiş və bunun bizim şairlər üçün faydalı ola biləcəyini demişdi (onlar şərqliləri tərcümə edib öyrənirlər, biz niyə bu cür etməyək?!). 1920-ci illərin sonu və 30-cu illərdə rus şairi V. Mayakovskinin, qismən də türkiyəli Nazım Hikmətin təsiri ilə Sovet Azərbaycanında sərbəst vəzn dəbə minmişdi. 20-ci əsr Sovet dövrünün ən məşhur Azərbaycan şairi Səməd Vurğun (1906-1956) da sərbəst şeir dəbinə cavab vermiş, lakin onun bu marağı uzun davam etməmiş, hecanın musiqili ahəngi onu öz qoynuna almışdı. Digər tərəfdən, düşünürəm ki, şimalda - Azərbaycanda zaman-zaman qəzəlxanların meydana gəlməsində (Ə. Vahid!) və ya heca vəznində yazan şairlərin bəzən qəzəl janrına müraciət etmələrində klassik poeziyanın təsiri ilə yanaşı, söz olaraq qəzələ bağlı olan muğam sənətinin rolu da mühüm olmuşdur.



***

Şəhriyarın Azərbaycan türkcəsində ilk əsəri - "Heydərbabaya salam"ın (1-ci hissənin) 1952-53-cü illərdə Tehranda yazıldığı, mümkündür ki, Təbrizdə tamamlandığı güman olunur, əsər 1954-də Təbrizdə nəşr olunmuşdur. Təbrizdəki nəşrdən bir neçə ay sonra "Heydərbabaya salam" Türkiyədə bilinmiş, "Azərbaycan" dərgisində dərc olunmuşdur (1954-55), üstəlik, bu əsərə ilk səs verənlərdən biri yenə Türkiyədə, həmin dərgidə çox həssas və uzaqgörən bir adla - "Edebi bir Hadise" adlı məqalə ilə çıxış edən Məhəmməd Əmin Rəsulzadə olmuşdur ("Azerbaycan" dərgisi, 1955, No 4-5). "Heydərbabaya salam"ın ikinci hissəsinin 1963-65-ci illərdə yazıldığı deyilir, 1964-cü ildə Təbrizdə, 1965-ci ildə Türkiyədə ("Türk kültürü" dərgisində) və 1966-cı ildə Bakıda nəşr olunmuşdur. "Heydərbabа" Təbriz yaxınlığındakı Xoşginab kəndinin yanında bir dağın adıdır.

***

"Heydərbabaya salam" Azərbaycan poeziyasında ən çox sevilən və əzbərlənən əsərlərdən biri olmaqla öz dövrünün şeirsevərlərinin və sonrakı nəsillərin yaddaşında xüsusi yer almış, onun təsiri böyük olmuş, müxtəlif şairlər tərəfindən ona çox nəzirə, bənzətmə və ya sadəcə cavab yazılmışdır; Şəhriyar onların bir qismino şeirdə cavab vermişdir. Əsər bir çox dillərə, o cümlədən farscaya (1993) tərcümə olunmuşdur. Poema ilk sətirlərindən sadə insanların danışdığı tərzdə, şirin Təbriz ləhcəsində gedən söhbət təsiri bağışlamaqla Şəhriyar qələminin qeyri-adi hiss-həyəcan yaratmaq gücünü nümayiş etdirir:

Heydərbaba, ildırımlar çaxanda,
Sellər-sular şaqqıldayıb axanda,
Qızlar ona səf bağlayıb baxanda,
Salam olsun şövkətizə, elizə,
Mənim də bir adım gəlsin dilizə.

Türk dilli oxucular arasında Şəhriyarı məşhur edən məhz "Heydərbabaya salam"dır. Daha çox əzbərlənən və alıntılar edilən bəndlər əsərin birinci hissəsindədir, onlardan şəxsi xatirələri deyil, dünya, həyat və ölüm haqqında düşüncələri ehtiva edən bəzi bəndləri yada salıram ("Heydərbabaya salam" haqqında danışarkən və yazarkən əsərdən xeyli alıntılar etməden keçinmək mümkünsüzdür...):

4. Heydərbaba, gün dalıvı dağlasam,
Üzün gülsün, bulaqların ağlasam,
Uşaqların bir dəstə gül bağlasam,
Yel gələndə, ver gətirsin bu yana,
Bəlkə mənim yatmış bəxtim oyana.

5. Heydərbaba, sənin tüzün ağ olsun,
Dört bir yanın bulaq olsun, bağ olsun,
Bizdən sora sənin başın sağ olsun,
Dünya qəzəv-qədər, ölüm-itimdi,
Dünya boyu oğulsuzdu, yetimdi.

6. Heydərbaba, yolum səndən kəc oldu,
Ömrüm keçdi, gələmmədim, gec oldu,
Heç bilmədim gözəllərin necoldu,
Bilməz idim dönglər var, dönüm var,
İtginlik var, ayrılıq var, ölüm var.

49. Heydərbaba, dünya yalan dünyadı,
Süleymandan, Nuhdan qalan dünyadı,
Oğul doğan, dərdə salan dünyadı,
Hər kimsəyə hər nə verib alıbdı,
Əflatundan bir quru ad qalıbdı.

69. Heydərbaba, göylər bütün dumandı,
Günlərimiz bir-birindən yamandı,
Bir-birizdən ayrılmayın, amandı,
Yaxşılığı əlimizdən alıblar,
Yaxşı bizi yaman günə salıblar.

71. Bir uçaydım bu çırpınan yelinən,
Bağlaşaydım dağdan axan selinən,
Ağlaşaydım uzaq düşən elinən,
Bir görəydim ayrılığı kim saldı?
Ölkəmizdə kim qırıldı, kim qaldı?

76. Heydərbaba, sənin könlün şad olsun,
Dünya varkən ağzın dolu dad olsun,
Səndən keçən tamış olsun, yad olsun,
Deynə mənim şair oğlum Şəhriyar,
Bir ömürdür qəm üstünə qəm qalar.

***

Əsər, deyilənə görə, anası Kövkəb xanımın "nə yazdığını bilmirəm, mənim başa düşmədiyim dildə yazırsan" sözlərindən sonra yazılmışdır (anasının təsiri olub, amma o, dəqiq bəlkəmi deyib, yoxsa sadəcə, öz danışığı ilə Şəhriyarda həzin uşaqlıq xatirələrinimi oyadıb?!). Uşaqlıq (və ilk gənclik) xatirələri sənət adamlarının yaradıcılığında həmişə böyük rol oynayıb, bu, Şəhriyar yaradıcılığında da aparıcı xətlərdən biridir ("Heydərbabaya salam", farsca yazılmış "Gecənin əfsanəsi",...). Xüsusilə, uşaqlığını kənddə, kənd mühitində və təbiət qoynunda keçirən və sonralar şəhərdə yaşayanların xatirələri sanki daha kövrək olur (bəlkə də burada şəhər mühitinin doğma kənd mühitindən fərqi təsiredici rol oynayır?!). Jean-Jacques Rousseau (1712-1778) insanın təbiətə, "təbii hal"a qayıtması fəlsəfəsi ilə "uşaq mütləq bir müddət kənddə yaşamalı, təbiətlə iç-içə qalmalıdır" fikrini ortaya atmışdı. Həyatın isə öz cərəyanı var, tək indi deyil, lap qədimlərdə də insanlar kəndlərdən şəhərlərə axışmışlar:

Şəhər yeni, kənd əzəldi
Şəhərlilər kənddən gəldi...
Oxumağa gələn də çox
Ağlayan da, gülən də çox
Şəhər üçün ölən də çox...

Biri haya-küyə gəldi,
Biri məzə-məyə gəldi,
Bilməsə də nəyə gəlgi
Şəhər deyə-deyə gəldi,
Şəhəri görməyə gəldi,
Şəhərdə ölməyə gəldi...

("Şəhərlilər kənddən gəldi", Hamlet İsaxanlı - "Bu da bir həyatdı", Bakı, 2004)

Şirin uşaqlığım hər kəs xatırlayır və bu anlar qəribə hisslər keçirir; şair bu hissləri misralara düzə bilir. "Heydərbabaya salam" Şəhriyarın öz uşaqlığı ilə, uşaq vaxtı onu əhatə edənlərlə, xalqla, təbiətlə söhbətidir. Yüksək sənətkarlıqla aparılan bu söhbət gah bulağın zümzüməsini, gah çaym çırıltısını, gah dəmirin ləngərini andırır, gah da sellərlə, ildırımlarla müşayiət olunur. Şəhriyar sevinc və məhrumiyyətləri əvvəlki şairlərə bənzəməyən bir dildə və tərzdə, belə demək mümkünsə, folklor gücü ilə təsvir edir. Bu söhbət bizi də arxasınca aparır, çünki bizim hisslərimizdən də xəbər verir – budur

sənətin qüdrəti! Şairlik həm də içimizdə yaşayan uşaqlığın zümzüməsidir, uşaqlıq sevdasıdır:

Bir gün günaha batdım -
İçimdəki sadə, təmiz,
Başqa nəfəs toxunmamış,
Məclislərdə oxunmamış
Şeirə bənzər misraları
Silkələyib oyatdım.
Sətir-sətir, cümlə-cümlə
Qələmimlə
Bəzəyib çölə atdım,
Özümə iş yaratdım.
Qafiyəli, musiqili sözümü
Kağıza köçürməkdən
Sərxoş olmuşdum özümü
Neçə kərə.
Sözümü vurdum yerə,
Uydum sevdalı şeirə.
Bağışlayın,
Gücüm yox, bu olasıydı,
Bu, uşaqlıq sevdasıydı...
(*"Şeirlərim", Hamlet İsaxanlı - "Bu da bir həyatdı" kitabından*)

***

Azərbaycan türkcəsində yazdığı şeirlərində Şəhriyar el ədəbiyyatından yaxşı məlum olan beş misralı **saabb** qafiyəli şeir növündən çox istifadə etmişdir. S. Vurğunun məşhur "Azərbaycan" şeiri kimi:

Sıra dağlar, gen dərələr
Ürək açan mənzərələr
Ceyran qaçar, cüyür mələr
Nə çoxdur oylağın sənin
Aranın, yaylağın sənin.

Səməd Vurğun Şəhriyarı tanımağa macal tapmadı, 1955-ci ildə ağır xəstələndi və 1956-cı ildə vəfat etdiyi üçün "Heydərbabaya salam" haqqında eşitmədi. Lakin S. Vurğunun şöhrəti Şəhriyara gəlib çatmışdı ("Səmədin də sözündən öp" deyə yazmışdı – "Qardaşım Süleyman Rüstəmə"). Şəhriyarın "Heydərbabaya salam"la (1-ci hissə 76, 2-ci hissə isə 48, bir variantda – 49 bənddən-beşlikdən ibarət olmaqla) başladığı bu üslub "Ağa Mir Sadığın xeyratı", "Məmməd Rahim həzrətlərinə cavab", "El bülbülü", "Ayrılıq" ("Qardaşım Süleyman Rüstəmə ithaf"), yenə "Qardaşım Süleyman Rüstəmə" (8 hecalı), "Döyünmə-söyünmə (Rüstəm Əliyevə), "Sənəti-məmləkət", "Əncela" kimi şeirlərində də işlənilmişdir.

Türkcə yazan böyük şairləri - Füzuli, Vaqif, xüsusilə S.Ə. Şirvani və M.Ə. Sabir, həmçinin aşıq ədəbiyyatını yaxşı bilmiş, onlara farsca və Azərbaycan türkcəsində bənzətmələr yazmışdır, o cümlədən Vaqifin "Bayram oldu" şeirinə farsca "Camal və Kamal" adlı qəzəl yazmışdır. Şəhriyar yaradıcılığında S.Ə. Şirvaninin qəzəllərinin və Sabirin "Hophopnamə"sinin təsiri açıq hiss olunur. Müraciət etdiyi və ilham aldığı qaynaqlar arasında "Əli-Kərəm", "Koroğlu", "Qaçaq Nəbi", bayatılar və məhnılar (məsələn, "Bakıdan fənər gəlir") olub. Şəhriyar öz müasiri olan Sovet Azərbaycanı şairlərini, yəqin ki, əsasən məktublaşmalar zamanı daha yaxından tanımağa başlamışdı. Üzeyir bəy Hacıbəylinin adını çəkməsə də, məşhur "Məşədi İbad" və "Arşın mal-çı"nı yada salır.

Şəhriyarın "Heydərbabaya salam"dan sonra ən çox diqqət çəkən əsərlərindən biri öz həmvətəni şair Bulud Qaraçorlu Səhəndə (1926-1979) cavab olaraq yazdığı "Səhəndim" və ya "Səhəndiyyə"dir. "Səhəndiyyə" aşıq divani ruhu ilə yoğrulmuş kimidir, formaca pilləvari şeirdir, qafiyələri sanki axıb gedir və xüsusi qəlibə tabe deyil. Yanğının, hisslərin çılpaq, bəzəksiz ifadəsi olan "Xan nənə" şeirini də şair xüsusi bənd və qafiyə sisteminə tabe etməmişdir. Qeyd edim ki, Səhənd türkcə yazan çağdaş İran şairləri içində Şəhriyarın ən yüksək qiymət verdiyi şairdir. Bir neçə şeirində Səhəndi yüksək qiymətləndirir, onu (və tək onu) özü ilə yanaşı tutur:

Fürsətdə Səhənd ilə sizə gül səpərik biz
Hər göz sizi görmüşsə, o gözdən öpərik biz.
(*"Döyünmə-söyünmə"*)

Həm "Səhəndiyyə" Səhəndin dağın etdi başuca
Həm mən öz qardaşımın həqqini ifa elədim.
(*"Dərya elədim"*)

Şəhriyar arzı-göz oldu ki, Səhəndilə gələ
Bəxtiyar məclisinə, başda Süleyman Rüstəm.
(*"Can Rüstəm"*)

Şəhriyarın türkcə şeirlərinə xas olan kövrəklik, nisgil, səmimilik, dil (zəngin, obrazlı təbriz dialekti), divan ədəbiyyatı və xalq ədəbiyyatının sintezindən doğan ləngərli axıcılıq onu hər kəsdən fərqləndirir. "Türkün məsələ, folkloru dünyada təkdir" ("Türkün dili") - Şəhriyarın bu misrası Fuad Köprülünün "Azərbaycan ədəbiyyatının güclü tərəfi onun zəngin folklorudur" fikri ilə tuş gəlir. Azərbaycan türkcəsinin zənginliyinə qovuşub onu canlandıran, ona xüsusi ifadələr gətirən nəhənglərimiz olub - Füzuli, Üzeyir Hacıbəyli, Cəfər Cabbarlı və Səməd Vurğun kimi, Şəhriyar da bu sıradadır. Türkcə şeirlərini əsasən heca və əruz vəznlərində yazıb. Əruz nəfəsli hecası var Şəhriyarın! Ritmik dayanacaqlar (sezuralar; məsələn, 11 hecalı misralarda 6+5 və ya "Heydərbabaya salam"ın yazıldığı 4+4+3 bölgüləri) Şəhriyar şeirlərində pozula bilir. Şəhriyarın türkcə şeirlərində yazılı ədəbi dil normaları deyilən qəliblərdən kənara çıxmalar az deyil. Bu, mənca, əruz vəzninin şairi olmaqdan, canlı danışıq ləhcəsindən istifadə etməkdən və sadəcə, Şəhriyarın türkcədə ədəbi dil normaları haqqında düşünməməsindən irəli gəlir. Şəhriyar bu normaları vecinə almır, bildiyi, danışdığı dili yazır...Sərbəstdir, qafiyələrdə hərfilik güdmür, fikir təbii axarını tapır. "Dədəm Qorqud"un şeirləri də hesabla deyil, yırğalanır, ahəngləşir, pilləvaridir.

***

Şəhriyar öz poetik yaradıcılığı barədə təvazökarlıq etməmiş, həm şairlik qüdrətini, həm türkcəyə töhfəsini, həm "Heydərbabaya salam"ın möcüzəsini dəfələrlə yada salmış, tərif etmişdir. Özünü əsrimizin Hafizi və Saibi adlandırmışdır. Yeni bir Hafiz doğulması mümkündürmü?

Belə bir dövrədə Hafiz doğulur?
Bu ümid varsa qalıb mənciğaza...
(*"Cəhad fərmanı"*)

Şeirlərinin İranda, Türkiyədə, Qafqazda böyük rəğbət gördüyünü, "vəlvələ" yaratdığını, yazır. "Türki bir çeşmə isə, mən onu dəryə elədim" ("Dəryə elədim"), buna bənzər ifadələrə Füzuli və Əlişir Nəvaidə, fars dili haqqında isə Firdovsidə rast gəlinir, onların buna böyük haqqı var. Şəhriyar yaradıcılığının böyük hissəsinin farsca olmasına işarə vuranlara "Elimin farsıca da dərdini söylər diliyəm mən" ("Səhəndiyyə") deyir. "Türkün dili"ni tərif edir, bu barədə xüsusi şeir yazır, lakin, bununla yanaşı, bədəni və paltarı olub ürəyi olmayan şeirin əsil şeir olmadığını deyir, dadlı-duzlu şeirə və əsil şairə ehtiyacı vurğulayır:

Türkün dili tək sevgili, istəkli dil olmaz,
Ayrı dilə qatsan bu əsil dil əsil olmaz.
...Bişmiş kimi şeirin də gərək dad-duzu olsun,
Kənd əhli bilirlər ki, doğabsız xəşil olmaz.
...Şair ola bilməzsən, anan doğmasa şair,
Müsən, a balam, hər sarı köynək qızıl olmaz.

Heydərbaba dağından əvvəl, yenə S. Vurğunu, onun Göyəzən dağını yada salıram:

Göylərə baş çəkir Göyəzən dağı
Axşam açıq olur Ayın qabağı
Bizim gəlinlərin bayram qabağı
Fəsəli yaymağı yadıma düşdü.

Deyilənə görə, Qazaxdakı bir təpəni - Göyəzən dağını ilk dəfə görən şair dostlarından birinin "Ay Səməd, bu göylərə qaldırdığın Göyəzən adi bir təpə imiş" sözünə S.Vurğun zarafatla (amma, yəqin, bir qədər də qürurla) "şairin gücü elə təpəni əzəmətli dağa çevirə bilməsindədir" deyə cavab veribmiş. Şəhriyar da Heydərbaba dağını/təpəsini əzəmətli bir dağa çevirdi!

Bax ki, Heydərbaba əfsanə tək olmuş bir Qaf,
Mən kiçik bir dağı sərməmzili-ənqa elədim.
(*"Dəryə elədim"*)

***

Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev bir müsahibəsində "ən çox sevdiyin şair kimdir" sualına Şəhriyar, "ən çox sevdiyin şeir hansıdır" sualına isə S. Vurğunun "Azərbaycan" şeiri deyə cavab vermiş, bununla Şəhriyar və S.Vurğunu, həmçinin iki Azərbaycanı yanaşı qoymuşdu. Bu yazıda bu iki böyük şairin adını bir neçə dəfə yanaşı çəkdik. Onlar Azərbaycan poeziyası səmasında parlayan ulduzlardır, bənzərsiz poetik incilər yaratmışlar. Səməd Vurğunun "Vaqif" dramı poeziyamızın təkrar olunmaz şah əsəridir, onu keçən heç nə yazılmadı, nə S. Vurğunun özünün, nə digər şairlərin buna qüdrəti çatmadı. Eyni fikri "Heydərbabaya salam" haqqında da demək olar. Şəhriyar əsasən "Heydərbabа şairi" kimi tanındı və məşhurlaşdı. Məşhur əsərlər (o cümlədən, S.Vurğunun "Vaqif"i, Şəhriyarın "Heydərbabaya salam"ı) sanki ilhamın möcüzəli qanad açması ilə, sanki vəhy ilə gəlmişdir, onların tayı olmur.

***

Şəhriyarın "Heydərbabaya salam" və Azərbaycan türkcəsində yazdığı digər şeirləri maraqlı deyimlərlə, məcazlarla, oynaq nəqışlarla bəzənmişdir. Təhlildən yaz keçərək, yuxarıdakı misallara bir neçə misra da əlavə edək:

...Bizə bir din qala bilmişdi miras, bir də İran,
Din gedəndə dedi: "tək getməzəm", İran ilə getdi.
...Hava insanı boğur, baş-başa "qaz, karbonik"
olmuş,
Yel də əsmir, elə bil yel də Süleyman ilə getdi.
...Türki olmuş qədəğən, divanımızdan da xəbər
yox,
Şəhriyarın dili də "vay" deyə divan ilə getdi.
(*"Getdi"*)

Tehranın qeyrəti yox Şəhriyarı saxlamağa,
Qaçmışam Təbrizə, qoy yaxşı-yaman bəllənəm.
(*"Şəhr oğlan"*)

Çoxlar incikdi ki, sən onlara naz eyləmisən,
Mən də incik ki, mənim nazımı az eyləmisən.
...Bu gözəllik ki, cahanda sənə vermiş tanrı,
Hər qədər naz elədən eylə ki, az eyləmisən.
... Mən bu mənada qəzəl yazmağa halım yox idi,
Sən mənimtək qocanı firfirabaz eyləmisən.
(*"Naz eyləmisən"*)

Burada Səməd Mənsurun "Naz et" ("Naz et mənə, ey sevgili yarım, mənə naz et") şeirinə Ə. Vahidin "Təxmis"i yada düşür (Yanım dilim ağzımda, desəm nazüvi az et/Naz et mənə, ey sevgili canan, mənə naz et...).

Şair millətin qoyun olmasını istəmir, bu təhlükə onu qorxudur:

Qorxum budur oyun ola
Millət yenə qoyun ola.
(*Qardaşım Süleyman Rüstəmə*)

Və ya:

İtimiz qurd olalı, biz də qəyıtdıq qoyun olduq,
İt ilə qol-boyun olduq.
...Biz də baxdıq it ilə qurd arasında oyun olduq,
İt ilə qol-boyun olduq.
(*"Qoyun olduq" müstəzadı*)

Nümunələri "Səhəndim"dən götürülmüş misralarla bitirirəm:

Şeir yazanda qələmindən baxasan dürr səpələndi,

Sanki ulduzlar əlində.
Söz deyəndə görəsən qatıb gülü, püstəni, qəndi,
Yaşasın şair əfəndi!

...Gecələr orda gümüşdəndi, qızıldan nə
gündüzlər,
Nə zümrüdü kimi dağlardı, nə mərmər kimi
düzlər,
Nə qızıl telli ilxılar, nə ala gözlü öküzlər,
Nə gözəl, ay kimi üzlər!

...Lalə bitdi yanaq oldu,
Qonça güldü dodaq oldu,
Nə sol oldu, nə sağ oldu,
Hamısı birəyaq oldu!

...Yad məni atsa da, öz gülşənimin bülbülüyəm
mən,
Elimin farsıca da dərdini söylər diliyəm mən,
Həqqə doğru nə qaranlıq isə el məşəliyəm mən,
Əbədiyyət gülüyəm mən.

***

Şəhriyaşünaslar Şəhriyar irsini öyrənir, araşdırır, öz düşüncələrini oxucularla bölüşməyə çalışırlar. Sağ olsunlar. Lakin, bəzən sadə oxuculara xas olan aludəçilik və rəvayətçilik sanki bir sıra alim və sənət adamlarına da hakim kəsilir. Əlbəttə, rəvayətlərin də öz yeri var, qoy aşıqlar Şəhriyar haqqında rəvayətləri toplayıb "Şəhriyar və Sürəyyə" adlı dastan qoşsunlar. Lakin elmi araşdırma iddiasında olanların aludəçiliyi lazımsız şişirtmələrə, faktların rəvayətlərlə əvəz olunmasına, hətta təhriflərə yol açır. Şəhriyar böyük şairdir, onun həyatını, poetik və ictimai düşüncələrini, həyata baxışını olduğu kimi anlamaq və anlatmaq lazımdır. Hər şairin, alim və ya sənət adamının güclü və nisbətən zəif əsərləri və ya ziddiyyətli baxışları ola bilir, onların portreti yaradılarkən mübahisəli məqamlara göz yummaq, kölgələri silmək, bəlağət, bəzək və parıltını artırmaq gerçəkliyin təhrifi deməkdir, elmə zidd hərəkətdir.

Böyüklüyün mahiyyəti
Hər işdə qeyri-adilik
Və ya kamillik deyil ki...
Təcrübə bizə deyir ki
Dahi varsa aramızda
Allah bəndəsidir o da,
Seçilsə də insanlardan
Birinci olmaq verilmir
Ona hər yerdə, hər zaman.

Qocaman bir müdrik kişi
Bir uşağın arxasınca
Tər tökə də yetə bilmir,
Qartal kimi qanad çalan
Bülbül kimi ötə bilmir.
Kimdə ki böyüklüyü hünər
Səhvi də böyük görünər.
Belədir dünyanın işi:
Parıltı həm də çaşdırır,
Gur işıq göz qamaşdırır...

(*"Köhnə çıraq". Hamlet İsaxanlı - "Bu da bir həyatdı" kitabından*)

***

Şairin böyüklüyünü göstərən əlamətlərdən biri zaman keçdikcə onun bizə daha yaxın görünməsi, onun yaradıcılığına olan sevginin artması, onun odunun alovlanması deyilmi?! Şəhriyar öz adının, sözünün yaşayacağına inanırdı, "Heydərbabaya salam"ın ikinci hissəsində, sona yaxın bunu xüsusi vurğulamışdı:

45. Evlər qalır, ev sahibi yox özü,
Ocaqların ancaq işıldar közü,
Gedənlərin az-çox qalıbdır sözü,
Bizdən də bir söz qalacaq, ay aman!
Kimlər bizdən söz salacaq, ay aman!

47. Aşıq deyər: bir nazlı yar var imiş,
Eşqindən odlanıb yanar var imiş,
Bir sazlı, sözlü Şəhriyar var imiş,
Odlar sönüb, onun odu sönməyib,
Fələk çönüb, onun çarxı çönməyib.

Şəhriyar yaradıcılığına həsr olunmuş konfranslarda (Bakı və Təbriz, 2016, sentyabr) bir neçə şeir, o cümlədən, "Dalğalarla yan-yana" adlı aşağıdakı şeiri oxumuşdum, bu yazımı da onunla bitirirəm:

Gündoğandan gümbatana gəzmişəm,
Oxşamıram bu dünyadan dəyənə.
Şəxtə vurub, od eləmib, dözmüşəm,
Səyyah gərək hər möhnətə dayana.


Yaraşıqlı, möcüzəli bir diyar,
Amma orda nə eşqim, nə izim var.
Öz yurdumda gül açmışdı arzular,
O güllərin qoxusundan harda var?!
Yaxşı deyib ustadımız Şəhriyar:
«Yel gələndə ver gətirsin bu yana,
Bəlkə mənim yatmış bəxtim oyana».

Bu dünyanın çoxmuş bəndi-bərəsi,
Xeyirlə şər məhəm deyir hərəsi,
Zamandadır, varsa, bunun çarəsi...
Silkələnə, titrəyə yer kürəsi,
Ərşə qalxa Koroğlunun nərəsi –
Dəmirçioğlu, Dəli Həsən oyana,
Qaniçənlər qızıl qana boyana.

Heyrət bəzən bağlasa da dilimi,
Duyğularım işə saldı qələmi,
İynə olub sapa düzdüm aləmi.
İçdən gələn sevincimi, nalәmi
Yüklənərək yelkən açdı bir gəmi...
Ömür keçdi dalğalarla yan-yana,
Salam olsun bu əhvalı duyana!

(*Hamlet İsaxanlı - "Bu da bir həyatdı" kitabından*)










THE SAME



"SƏNİN BAXIŞIN" ADLI RƏSM SƏRGİSİNİN YEKUN TƏDBİRİ
FINAL CEREMONY OF "YOUR VIEW" PAINTING EXHIBITION

İyunun 11-də Xətai Sənət Mərkəzində Xəzər Universitetinin İqtisadiyyat və menecment fakültəsinin "THE SAME" komandasının planlarından biri olan təsviri sənətdə "Sənin baxışın" sərgi-müsabiqəsinin yekun tədbiri universitetin Dizayn departamentinin təşkilatçılığı və birgə səyi ilə keçirildi. Sərginin əsas məqsədi irqçilik və ayrıseçkiliyə gənclərin və uşaqların gözü ilə yanaşmaq idi.

Tədbirdə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, universitetin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli, İqtisadiyyat və menecment fakültəsinin, eyni zamanda, "THE SAME" komandasının koordinatoru Dr. Bahadır Baysal, Türkiyənin Azərbaycandakı səfirliyinin mədəniyyət və turizm müşaviri İrfan Çiftçi, Amerika səfirliyindən Rumina Mürşüdova, xalq rəssamı, Azərbaycan Rəssamlar İttifaqının katibi Ağaəli İbrahimov, əməkdar incəsənət xadimi, sənətşünas Ziyadxan Əliyev, əməkdar rəssam, Azərbaycan Rəssamlar İttifaqının gənclər bölməsinin sədri Tahir Məmmədov, əməkdar mədəniyyət işçisi, quruluşçu rəssam Rafael Əsədov, əməkdar mədəniyyət işçisi, animator Elçin Axundov, rəssam-dizayner - DTS muzeyinin və Xəzər Universitetinin Dizayn departamentinin müdiri Afaq Kərimova, Xətai Sənət Mərkəzinin direktoru Zahid Əvəzov və digər elm, sənət xadimləri iştirak edirdilər.

Komanda üzvlərinin və qonaqların çıxışlarından sonra musiqi sədaları altında sərgi açıq elan edildi. Sərgidə iki mərhələli seçimdən sonra 41 iştirakçının əl işi nümayiş olunurdu. Görkəmli rəssamlar və qonaqlar əsərləri bir-bir qiymətləndirdilər.

(Ardı səh. 42-də)

On June 11, on organizational support and joint effort of the Department of Design of the University, the final ceremony of "Your view", a competition-based exhibition, which was one of the plans of "The Same" team of the School of Economics and Management, took place at Khatai Art Center. The aim of the exhibition was to look at racism and discrimination through the eyes of children and the youth.

Prof. Hamlet Isakhanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, Alovsat Amirbeyli, Director for Public Relations and Media, Dr. Bahadir Baysal, Coordinator of the School of Economics and Management and "The Same" team, Irfan Chiftchi, Culture and Tourism Advisor to the Turkish Embassy in Azerbaijan, Rumina Murshudova, a representative of the USA Embassy, Agahali Ibrahimov, Secretary of the Union of Artists of Azerbaijan, Ziyadkhan Aliyev, Honored Art Worker and Art Critic, Tahir Mammadov, Honored Artist and Chair of the Division of the Youth of the Union of Artists of Azerbaijan, Rafael Asadov, Honored Art Worker and Artist, Elchin Akhundov, Honored Art Worker and Animator, Afag Karimova, Chair of the Department of Design of Khazar University, Zahid Avazov, Director of Khatai Art Center and other science and art figures participated at the event.

After speeches of team members and guests, the exhibition was announced open under music. After a two-stage selection process, paintings of 41 participants were demonstrated at the exhibition. Prominent artists and guests evaluated all the paintings.

(To be continued on page 42)





Qaliblər həm uşaq kateqoriyasından, həm də gənclər kateqoriyasından seçildi. Birinci yeri Xəzər Universitetinin Dizayn ixtisası üzrə təhsil alan tələbəsi Ayan Novruzova, üçüncü yeri isə universitetin gənc müəllimi Leyla Salayeva mövzuya tam cavab verən mənalı əl işləri ilə qazandılar. Qaliblərə və iştirakçılara hədiyyələr, diplomlar təqdim olundu.

Tədbir iştirakçılarına Xəzər Universiteti Musiqi və incəsənət departamentinin müdiri, əməkdar müəllim, pianoçu Zülfiyyə Sadıqovanın rəhbərliyi ilə konsert proqramı təqdim olundu. Universitetin Humanitar və sosial elmlər fakültəsinin tələbələri Günel Ələsgərova və Turan Məmmədova müxtəlif mahnılar, Roman Azafli aşıq havaları ifa etdilər.

AZƏRTAC, AzTV-nin Mədəniyyət kanalı, İctimai TV və digər kütləvi informasiya vasitələrindən olan media mənsubları iştirakçılardan və qonaqlardan müsahibə aldılar, tədbiri işıqlandırdılar.

The winners were classified into two groups - children and youth. Ayan Novruzova, Khazar University student majoring in Design, and Leyla Salayeva, a young instructor of the University, held the first and the third places respectively. The winners and participants were presented with gifts and diplomas.

A concert program, performed under the guidance of Assoc.Prof. Zulfiyya Sadigova, Head of the Department of Music and Fine Arts of Khazar University, was presented to the participants. Gunel Alasgarova and Turan Mammadov, students of the School of Humanities and Social Sciences, sang songs. Besides, Roman Azafli performed ashig songs.

AZERTAC Azerbaijan State News Agency, "Medeniyyet" channel of AzTV, "Ictimai" TV and other mass media agencies covered the ceremony taking interviews from the participants and guests.












THE SA






THE SAİ E











VYANADA AESOP ERASMUS+ LAYİHƏSİNİN NÖVBƏTİ GÖRÜŞÜ

MEETING IN VIENNA WITHIN AESOP ERASMUS+ PROJECT

İyunun 11-dən 14-dək Avstriyanın Vyana şəhərində Avstriya Tələbə Ombudsmanı Ofisində Erasmus+ "Tələbələrin ombudsman vəzifəsi ilə hüquqi bazasının yaradılması" layihəsi çərçivəsində növbəti görüş keçirildi. Görüşdə layihənin regional tərəfdaşları olan Xəzər Universiteti, Gəncə Dövlət Universiteti, Naxçıvan Dövlət Universiteti, Naxçıvan Universiteti, Akaki Tsereteli Dövlət Universiteti (Gürcüstan), Qafqaz Universiteti (Gürcüstan), Gürcüstan Amerika Universiteti, Poltava İqtisadiyyat və Ticarət Universiteti və Kiyev Milli İqtisad Universitetinin, həmçinin, İngiltərənin Middlesex Universiteti, Polşanın Varşava Universiteti və Finlandiyanın Jyväskylä Universitetinin nümayəndələri iştirak edirdilər. Xəzər Universitetini layihə koordinatoru Rima Məmmədova və İngilis dili və ədəbiyyatı departamentinin müdir müavini Eynur Mehdiyev təmsil etdilər.

Görüşdə Rima Məmmədova Xəzər Universitetinin layihə çərçivəsində həyata keçirdiyi fəaliyyətlər haqqında hesabat verdi və gələcək planlar haqqında danışdı. Avstriya Tələbə Ombudsmanı Ofisinin direktoru Josef Leidenfrost Avstriya təhsil sistemi, Ali Təhsil Müəssisələrinin Ombudsmanlarının Avstriya Şəbəkəsi və onların fəaliyyətləri haqqında geniş məlumat verdi.

Görüş çərçivəsində iştirakçılar Vyana Universitetində oldular. Universitetin "Münaqişələrin idarə edilməsi" ofisinin və "Xarici Tələbələr üçün Ombudsman" ofisinin nümayəndələri ilə görüşdülər və onların fəaliyyətləri ilə tanış oldular.

On June 11-14, the next meeting took place within Erasmus+ "Advocacy Establishment for Students through Ombudsman Position" – AESOP project in the Office of the Austrian Student Ombudsman in Vienna city, Austria. The associates of regional partners of the project - Khazar University, Ganja State University, Nakhchivan State University, Nakhchivan University, Akaki Tsereteli State University (Georgia), Caucasus University (Georgia), Georgian American University, Poltava University of Economics and Trade and Kyiv National Economic University, University of Middlesex of England, Warsaw University of Poland and University of Jyväskylä of Finland participated in the meeting. Rima Mammadova, Project coordinator and Eynur Mehdiyev, vice-chair of the Department of English Language and Literature, represented Khazar University at the meeting.

Rima Mammadova delivered a report on Khazar University performance within the project and talked about the future plans. Josef Leidenfrost, Director of the Office of the Austrian Student Ombudsman, delivered broad information about Austrian education system, Austrian Network of ombudsmen in HE and their performance.

Within the meeting, the participants visited the University of Vienna and became familiar with the Office of Conflict Management and the office of Ombudsman for International Students.



MÜSABİQƏNİN QALİBLƏRİ MÜKAFATLANDIRILDI

WINNERS OF THE EGG DROP COMPETITION AWARDED

İyunun 12-də Xəzər Universitetinin Mühəndislik və tətbiqi elmlər fakültəsində Mexanika mühəndisliyi departamentinin dəstəyi ilə mayın 25-də keçirilmiş ilk "yumurta atma" (*Egg Drop*) müsabiqəsinin qaliblərinin mükafatlandırılması mərasimi oldu. Mühəndislik və tətbiqi elmlər fakültəsinin təşkilati dəstəyi ilə ilk "yumurta atma" müsabiqəsi 2018-ci il mayın 25-də keçirilmişdi. Bu müsabiqə iştirakçıların kövrək bir cismin (burada yumurtanın) 20 metr hündürlükdən təhlükəsiz şəkildə yerə düşməsini təmin etmək üçün mühəndislik elminin tətbiqi ilə bağlı yaradıcı qabiliyyətlərinin qarşılaşdırılmasından ibarətdir.

Müsabiqənin qalibini seçmək üçün müəyyən olunmuş meyarlara konstruksiyanın yüngüllüyü, yerdə müəyyən olunmuş hədəfə çatma sürəti və dəqiqliyi daxil idi. Mühəndislik və tətbiqi elmlər fakültəsinin müəllimləri Dr. Mirsadegh Seyidzavvar və Dr. Mehdi Kiyasatfar müsabiqənin hakimi təyin edilmişdilər. Ümumilikdə müsabiqədə 11 komanda iştirak edirdi. Yekun nəticələrə görə müəyyən olunmuş kriteriyalar əsasında yarışmada birinci yeri ən kreativ dizaynı nümayiş etdirən "HERO" komandasından Xeyrulla Əmirov və Ziya Mehdiyev, "Mechanical Power" komandasından Nicat Əliyev tutdular. Müsabiqənin qaliblərinə Mühəndislik və tətbiqi elmlər fakültəsinin dekanı Dr.Hassan Niknafs tərəfindən pul mükafatı və sertifikat təqdim olundu. Digər iştiakçılara isə iştirakçı sertifikatı verildi.

Awarding ceremony for the winners of the Egg Drop competition, held on an organizational support of the School of Engineering and Applied Sciences, took place on June 12, 2018.

On an organizational support of the School of Engineering and Applied Sciences, the first Egg Drop competition was held on May 25, 2018. This competition was all about challenging the creativity of participants in application of engineering science to safely land a fragile object, here represented as an egg, dropping from a high altitude of 20 m. The criteria to select the champion of the competition included the lightness of structure, the speed and the accuracy of landing on the target determined on the ground. Faculty members of the School of Engineering and Applied Sciences Dr. Mirsadegh Seyidzavvar and Dr. Mehdi Kiyasatfar were appointed as referees for this competition. A total of 11 teams participated in this competition. According to the final results, two teams namely "Mechanical Power" (members: Kheyrulla Amirov and Ziya Mehdiyev) and HERO (member: Nijat Aliyev) demonstrated the most creative design gaining the highest scores among other teams based on the specified criteria. The champions of the contest received financial award and certificate of first place holder from Dr. Hassan Niknafs, the Acting Dean of School of Applied Sciences and Engineering. The other participants were given a certificate of participation.





TAIEX EKSPERTLƏRİ İLƏ GÖRÜŞ

İyunun 21-də TAIEX ekspertləri Xəzər Universitetinin rəhbərliyi ilə Azərbaycan ali təhsil sistemində tədqiqat və innovasiyaların idarə olunması siyasətinin gücləndirilməsi mövzusunda görüş keçirdi.

Görüşdə Rumıniya Siyasi Araşdırmalar və Dövlət İdarəçiliyi üzrə Milli Universitetin şöbə müdiri Dr. Mihai Paunescu, Litva Tədris Elmləri Universitetinin Riyaziyyat, informatika və fizika kafedrasının professoru Gintaras Arbutavicius, Xəzər Universitetinin rektoru Dr. Hassan Niknafs, Tədris işləri üzrə prorektoru professor Məhəmməd Nuriyev, universitetin Magistratura, doktorantura və elmi işlər bölməsinin müdiri Eldar Şahgəldiyev, Beynəlxalq şöbəsinin direktoru Turan Cəfərova iştirak edirdilər.

MEETING WITH TAIEX EXPERTS

On June 21, TAIEX Experts held a meeting with Khazar University administration on Strengthening Policy and Management of the Research and Innovations in Azerbaijani Higher Education system.

Dr Mihai Paunescu, Head of Department, National University of Political Studies and Public Administration; Dr Gintaras Arbutavicius, Lecturer, Lithuanian University of Educational Sciences, Department of Mathematics, Informatics and Physics; Dr. Hassan Niknafs, Khazar University rector; Professor Mahammad Nuriyev, vice-rector for Academic Affairs of Khazar University; Dr Eldar Shahgaldiyev, Head of the Division of Graduate Studies and Research of Khazar University, Turan Jafarova, Director of International Office at Khazar University participated in the meeting.

XƏZƏR UNİVERSİTETİ ÖZƏL ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİ ARASINDA İLK PİLLƏDƏ

Təhsil Nazirliyi 2017-2018-ci tədris ilində ali təhsil müəssisələrinə qəbul zamanı tələbələrin topladığı orta balları açıqlamışdır. Xəzər Universiteti cari təhsil ilində universitetlərin orta bal üzrə sıralamasında özəl ali təhsil müəssisələri arasında ilk pillədə dayanmışdır.

Daha geniş məlumatı bu link vasitəsilə əldə etmək olar:

http://gapp.az/news/372797-ozvuchenyi-srednie-ballyi-abiturientov—spisok

KHAZAR UNIVERSITY AT THE TOP AMONG PRIVATE UNIVERSITIES


The Ministry of Education announced the average points of students scored at the entrance exam for higher education institutions for the 2017-2018 academic year. In the current academic year, Khazar University is at the top among private universities in average point ranking of universities.

For more detailed information:

http://gapp.az/news/372797-ozvuchenyi-srednie-ballyi-abiturientov—spisok

XƏZƏR UNİVERSİTETİ MÜƏLLİMİNİN ŞEİRLƏR KİTABI ÇAPDAN ÇIXIB

A BOOK BY A KHAZAR UNIVERSITY INSTRUCTOR PUBLISHED



İyunun 11-də Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) Xəzər Universiteti Azərbaycan dili və ədəbiyyatı departamentinin müəllimi Qardaşxan Əzizxanlının seçmə şeirlərindən ibarət "İlkim də sən, indim də sən, sonum sən" adlı kitabının nəşr edilməsi haqqında məlumat yaymışdır.

Xəbərdə deyilir ki, tanınmış şair Qardaşxan Əzizxanlının altmış illiyində nəşr edilən "İlkim də sən, indim də sən, sonum sən" adlı poetik toplusuna onun "Qaşla göz arasında", "Otuz yeddini keçəndə", "Ürəyin baxdığı yerdən" kitablarından seçmələr də salınmışdır. Min nüsxə tirajla çapdan çıxan kitabda məhəbbət, Vətən, sənət, həyat və dünya haqqında şeirlər toplanmışdır. Fərqli bədii tərtibatı ilə diqqət çəkən kitabın bir orijinallığı da onun oxucuya, eyni zamanda, məzmunca fərqlənməyən ikinci adla təqdim edilməsidir: "İlkimdəsən, indimdəsən, sonumsan".

"Poliqlot" bölməsində Q.Əzizxanlının ingilis, alman və rus dillərinə tərcümə edilmiş şeirlərindən nümunələr və onun alman şairləri Y.V.Höte və H.Haynedən tərcümələri yer alıb.

Xəbərin linki:

https://azertag.az/xeber/Sair_Qardasxan_Azizxanlinin_Ilkim_de_sen_indim_de_sen_sonum_sen_kitabi_chapdan_chixib-1171348

On June 11, the Azerbaijan State News Agency – (AZERTAC) posted news about the publication of the book of selected poems entitled "You are the beginning, the present and the end of mine" by Gardashkhan Azizkhanli, instructor of the Department of Azerbaijani Language and Literature of Khazar University.

According to the news, the new book, released at sixties anniversary of the poet, includes selected poems from author's previous books entitled "Between eyebrow and eyes", "When passed 37 years old" and "From where the heart looks at". The poetic "Divan", which has been published in 1000 copies, includes poems about love, motherland, art, life and world. The book is noteworthy for its distinguished design, which also has a second name similar to the first one in terms of content: "You are in the beginning, the present and the end of mine".

The chapter "Polyglot" of the book, contains Gardashkhan Azizkhanli's poems translated into the English, German and Russian languages as well as poems by J.W. Goethe and H. Heine translated by Gardashkhan Azizkhanli.

The link for the news:

https://azertag.az/xeber/Sair_Qardasxan_Azizxanlinin_Ilkim_de_sen_indim_de_sen_sonum_sen_kitabi_chapdan_chixib-1171348



PLATON`DA RİYAZİYYAT VƏ POETİKANIN VƏHDƏTİ

Hamlet İsaxanlı

Xəbər verdiyimiz kimi, Tbilisi İvane Cavaxişvili Dövlət Universitetinin (TDU) 100 illik yubileyi münasibətilə Klassik Bizans və Müasir Yunanşünaslıq İnstitutunun mayın 28-dən 30-dək Tbilisidə təşkil etdiyi beynəlxalq konfransda Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı "Platon`da riyaziyyat və poeziyanın vəhdəti" mövzusunda ingiliscə məruzə ilə çıxış etmişdir. Məruzənin Azərbaycan dilində mətnini təqdim edirik.

Giriş

Platon fəlsəfənin, demək olar ki, bütün sahələrinə toxunmuş, özündən əvvəlki filosofların ideyaları üzərində düşünmüş, kainat, cəmiyyət və fərd haqqında xüsusi nəzəriyyələr yaratmağa çalışmış filosof, yazar və elm adamıdır. Deyilənə görə, enlikürəkli və ya geniş alınlı olduğuna görə "geniş" (πλατύς/platis) mənası verən *Platon* ləqəbini almış bu filosof fəlsəfəni əhatə etmək baxımından, doğrudan da, geniş əhatəlidir. Görkəmli filosof, riyaziyyatçı və maarifçi A.N. Whitehead`in (1861-1974) geniş yayılmış fikrini yada salıram: "Avropa fəlsəfi ənənəsinin ən etibarlı ümumi səciyyəsi onun Platona haşiyələr/qeydlər silsiləsindən ibarət olmasıdır" (*Alfred North Whitehead. Process and Reality. N.Y. Free Press, 1979; p. 39*). Platon, üstəlik, inanılmaz dərəcədə nafis, incə şairanə dilə, böyük ifadə və dərin təhlil gücünə malik usta yazardır. Hələ antik dövrdə Platonu "filosofların Homeri" adlandıranlar olmuşdu (*Cicero, Tusculan müzakirələri /Tusculan Disputations, I, 79*).

Platon (-428/27, -348/47)* riyazi və poetik düşüncə sahibi olan böyük qurucu filosof idi. Platon zəka tarixində bir tərəfdən riyazi düşüncəni ön plana çəkməsi, digər yandan şairanə yazı üslubu və mifik düşüncəyə yer verməsi ilə yadda qalmışdır. Platon qədim dünyanın məşhur, məhsuldar və ən uzunömürlü (-387 və 529-cu illər arası, yəni 9 əsrdən çox fəaliyyətdə olan) elm və fəlsəfə məktəbinin - Akademiyanın təsisçisi və qurucusudur. Akademiyanın ilk dövründə riyaziyyat təlimi mühüm sayılır, mümkündür ki, birinci yerdə dururdu. Platon riyaziyyatın təbliğində və inkişafında mühüm rol oynamış, çağdaş riyazileşmiş elm modelinin kökündə dayanmışdır.

Platon kainat haqqında fikirlərində, yəqin ki, Pifaqoras və Empedokles`dən, əxlaq nəzəriyyəsində Sokrates`dən, riyazi görüşlərində Pifaqoras, Kirenli Theodoros və Tarentumlu Arxitas`dan, metafizika və dialektikada Heraklitos və Parmenides`dən bəhrələnmişdi. Platon Sokrates`in tələbəsi olmuş, dialoqlarının baş qəhrəmanı olaraq Sokrates`i seçmiş, öz fikirlərini əksər hallarda Sokrates`in dili ilə ifadə etmişdir. G. Sarton, mümkündür ki, bu səbəbdən "Platon öz riyazi təliminin mühüm hissəsini Sokrates`dən almışdır" fikrinə gəlmişdir (*George Sarton. Ancient Science Through the Golden Age of Greece. Dover Publications, 1993; p. 431*). Bu fikirlə razılaşmaq olmur; Sokrates`in əsas gücü onun əxlaq fəlsəfəsindədir. Sokrates`in gəncliyində digər filosoflar kimi təbiətşünaslıqla maraqlandığı istisna olunmur. Sokrat təbiət fəlsəfəsini sevməmiş, onu anlamaqda çətinlik çəkmiş və mənəviyyat məsələlərinə üz tutmuşdu (Platon, "Phaedon"). Sokrates başqaları kimi "Kainatın təbiəti",..."Kosmos", adlandırılan şey və göylər fenomenini idarə edən qanunlar haqqında mücərrəd düşüncələrə qapılmağı mənasız sayırdı; o, fizik ("fizioloq") filosoflardan deyildi və daha həyati filosof olmağı doğru sayırdı: "gəlin fizioloqlardan/fiziklərdən daha təvazökar və sofistlərdən daha nəmunalı olaq" (*bax, məsələn: Sarton. Ancient Sci...p. 260-262*). Sokrates "fəlsəfəni göylərdən yerə endirdi" (*Cicero, Tusculan Disputations, V, 4, 10*). Platon özü öz dövrünün bütün tanınmış riyaziyatçıları ilə sıx əlaqədə olmuş, onlarla əməkdaşlıq etmiş, onlardan öyrənmiş, bir sıra hallarda isə onları müəyyən məsələlərin həllinə yönəltmişdir.

Platon və onun elmin inkişafında rolu barədə fikirlər ziddiyyətlidir. Bu yazıda Platonun yaradıcılığına nəzər salınmış, elmin inkişaf meyillərini, çağdaş elmin əsaslandığı prinsipləri nəzərə almaq və görkəmli elm adamlarının fikirlərini cəlb etməklə Platon`un elm fəlsəfəsi və ya təbiətşünaslığı riyazileşdirmə proqramı, həmçinin Platon`da riyazi və poetik düşüncənin qovuşması məsələsi öyrənilmişdir.

---

* "Bizim eradan əvvəl" ifadəsini mənfi "-" işarə ilə əvəz edirik.

Platon`u tənqid məsələsi

"Həmişə Platonu tərifləmək düzgün hesab olunub, onu başa düşmək deyil" (*Bertrand Russell. The History of Western Philosophy, Simon & Schuster, 1972; p.105*). Bu fikirlə yalnız qismən razılaşmaq olar. Əslində, Platon dövründən başlayaraq, Aristotel və Epikuros`çulardan tutu bu yana günümüzə qədər Platonu tənqid edənlər az olmayıb (bu barədə bax, məsələn: *František Novotný. The Posthumous Life of Plato. Martinus Nijhoff, The Hague, 1977*). Platonun şəxsiyyəti, fəlsəfi görüşləri (idealizmi, bilik nəzəriyyəsi, dövlət utopiyası,...), Homer`in gücünü qeyd etsə də, onu layiqincə qiymətləndirməməsi, qeyri-akademik yazı üslubu kimi məsələlər Platon əleyhinə çoxsaylı yazılara mövzu olmuşdur. Sovet marksist (materialist) fəlsəfəsi Platonu və onun carçısı olduğu idealizmi amansızcasına tənqid etmişdir. Lakin, Platonun dilini gözəl norma və dialoq ədəbi üslubunu bənzərsiz model sayanlar tarixboyu, sanki, üstünlük təşkil etmişlər.

Çox böyük elm tarixçisi George Sarton Platon`u kəskin tənqid edənlər sırasındadır: "Bu bir paradoksdur ki, fərdiyyətçiliyə nifrət edən yazıçı humanizm carçısı (böyük humanist) kimi kanonikləşdirilib" (*Sarton. Ancient Sci...p. 418*). G. Sarton "Platonun saxta obrazını dağıtmaq məqsədini" bəyan edir (*Sarton. Ancient Sci...p. 427*). O, Platonun kimliyi haqqında fikir söyləyərkən, onu elm adamı kimi qəbul etmir: "o elm adamı deyildi; o, kosmoloq, metafizik və peyğəmbər (görücü) idi" (*Sarton. Ancient Sci...p. 426*). Friedrich Nietzsche, Arnold Toynbee, Karl Popper, Gilles Deleuze və Pierre-Félix Guatteri, noministlər kimi anti-platonçuların siyahısı uzundur.

Platon`un tanınmış tənqidçisi elmə zidd saydığı Platonizmin ölmədiyini və ölməyəcəyini yaxşı bilir və bunu



George Sarton

metafiziklər və şairlərin gücü ilə bağlayır: "Elmin inanılmaz bəhrəsi və gücünə baxmayaraq Platonçuluq ölməyib və ölməyəcək; hər zaman öz məsələlərinə tez, birbaşa və universal cavab almaq istəyən səbrsiz metafiziklərə görə (*G. Sarton burada nominalizmə aid olan baxışları nəzərdə tutur* - H.İ.) və gerçəklik əvəzinə arzuları seçən şairlərin həmişə var olacaqına görə (gəlin ümid edək) (*Sarton. Ancient Sci...p. 404*).

Platon`da riyazi gerçəklik və mistika, bilgi və ruh

Platon ağılla duyğunu bir-birindən ayırdı, ümumini daha da qabartdı və bunu xüsusinin hesabına etdi. Platona görə ideyalar əsldir, duyğu üzvlərimizlə qəbul etdiklərimiz (gördüklərimiz,...) fərdi varlıqlar isə onların təhrif olunmuş surəti, kölgələridir. Görünən şeylər yox olacaq, görünməyənlər əbədidir; o cümlədən, bədən müvəqqəti, ruh əbədidir. Bir fərd ölümlüdür, insanlıq isə əbədidir; var olan fərd deyil, insanlıqdır, insanlıq adlı ideyadır, formadır. Fərdləri anlamaq üçün onlardan böyük olan, onları birləşdirən anlayışa, ideyaya müraciət etmək lazım gəlir.

Platon estetik dəyərləri (gözəllik, yaxşılıq,...), həmçinin elmi anlayışları (ideyaları), birinci növbədə də riyaziyyatı əsl həqiqi varlıq kimi ortaya qoymuş, riyaziyyatçının başında, ağlında olan həndəsi fiqur və ədədlərin sabit, dəyişməz və maddi olmayan gerçək olduğunu irəli sürmüşdür. Gündəlik həyatda rast gəlinən maddi həndəsi fiqurlar (dairəvi təkər,...) gerçək varlıq deyillər, onlar əsl riyazi (mücərrəd) fiqurların dəqiq olmayan surətidir. Həndəsəçilər çəkdikləri fiqurlar haqqında deyil, mütləq kvadrat, mütləq dairə və mütləq diametr haqqında düşünürlər (*Plato. Republic, VI, 510 C-E*). Çoxluğu təmsil edən hər şeyin, hər adın - insan, daş, çiçək - bir ideyası, tək bir ideyası var - insan ideyası, daş və ya çiçək ideyası. Bu ideya birləşdiricidir. Platon çoxluğun var olmasını təmin edən birlik ideyasını əsas varlıq olaraq təqdim edir. Platon elm üçün mühüm olan anlayışlar, adlar, tərif, nümunələr kimi ümumi olanı, üzərində elm qurulan fikri, ideyanı vurğuladı.

Pithaqorosçulara görə "bütün aləm bütövlükdə ahəng və ədədlər" (*Aristotle, Metaphysics, A5 985b-986a*). Platon Pithaqorçu idi. Yaradıcılığının son dövründə ədədlərin hər şeyin kökündə dayanması, hətta hər şeyin ədədlərdən ibarət olması görüşü üzünü göstərmişdi (Aristotel "Metafizika" və bəzi digər əsərlərində Platon`un bu baxışları şifahi yolla, yazısız irəli sürdüyünü deyir). Platon ədədlərə sevgisini "Qanunlar"da ideal şəhərdə əhalinin sayı 5040, yəni, 1·2·3·4·5·6·7 olmalıdır deyə bildirmişdi. O, 2-dən başlayıb 10-da bitən tam ədədləri ideal, təmiz ədədlər hesab etmişdir. Platonun rəqəmə bağlı qəribə "qayda-qanunları" vardı, məsələn, qadınlar 20-40, kişilər 25-55 yaş arasında evlənəndə qanuni sayılır, uşaqları ola bilər, aks halda onlar azaddırlar, amma uşaq olmamalıdır.

Platonun həyat və ölümü də onun sevdiyi ədəd mistikası ilə şərh olunmuşdur: "Bilirsiniz, mən eminəm ki, Platonun diqqətli həyat tərzi sayəsində müqəddəratı yaxşı olmuşdur. Belə ki, o, məhz 81 yaşını tamamladıqdan sonra öz doğum günündə dünyasını dəyişmişdir. Bu səbəbdəndir ki, həmin dövrdə təsadüfən Afinada olan Şərqin müdrik insan-

ları onun ölümlü bir adama görə çox dolu ömür yolu keçdiyinə inanmış və ölümündən sonra onun adına qurbanlar kəsmişlər. Çünki o, 9 dəfə 9 mükəmməl rəqəmi (*81 – H.İ*) qədər yaşamışdır." (*Seneca, Epistles, 58, 31*).

Platon`a görə ruh ölməzdir, bilgi isə ruh və ya ağılda üstüörtülü, gizli mövcud olan, insanda (ruhunda) var olan şeylərin xatırlanmasıdır. Bu fikrin nisbətən sadə və maraqlı şərhi Sokrates'in kölə oğlan ilə çahşması üzərində qurulmuşdur ("Platon, Menon"). Sokrates kölə oğlanla söhbət və məntəvi sual-cavab yolu ilə kölənin verilmiş kvadratın sahəsindən iki dəfə böyük sahəsi olan kvadrat qura bilməsini göstərir; bərabəryanlı düzbucaqlı üçbucaqda hipotenuz üzərində qurulmuş kvadratın sahəsi katet üzərində qurulmuş kvadratın sahəsindən iki dəfə böyükdür. Platona (Sokrates`ə görə) görə insan bilmədiyi sandığı şeyləri əslində bilir (məsələn, bilmədiyi sandığı riyazi məsələləri həll edir), yəni, insan doğulanda onda bilgi var və öyrənmə bu bilginin xatırlanmasıdır. Kölə oğlan xatırlayır (*bu, sanki, öyrənmək deyil, xatırlamaqdır* - H.İ.).

Təhsildə riyaziyyat. Riyaziyyat təhsili

Platon "həndəsə və hesabla məşğul olanlar"ın, riyaziyyatçıların sərbəst düşüncə tərzini təsvir etmişdir; onlar bəzi riyazi anlayışlara məlum olan kimi baxır, "hesab edirlər ki, özlərinə və digərlərinə aydın olan bu şeylər haqqında hesabat verməli deyillər; bundan çıxış edərək və qaydalara uyğun olaraq, ümumi razılıqla nəzərdə tutduqlarına gəlib çıxmaq istiqamətində hərəkət edirlər" (*Republic, VI, 510 c-e*).

Platon Akademiyasının giriş qapısı üzərində "həndəsəçi olmayan girə bilməz" (və ya "həndəsədən başı çıxmayanlara giriş qadağandır") yazılmışdı (*Diogenes Laertius.Lives of Eminent Philosophers, Volume I, Books 1-5.Harvard University Press, 1925*). "Həndəsə" riyaziyyatın ən mühüm hissəsi sayılırdı və ya riyaziyyatla eyniləşdirilirdi. Platona aid edilən digər ifadə: "Tanrı həmişə həndəsi iş görür" (*"Plutarch, Convivial Questions. Həmçinin, bax: Sarton. Ancient Sci...p. 432*).

Platon ideal dövlət başçısının, idarəedənlərin riyazi biliklərə malik olmasını zəruri sayırdı. Təhsili hesab öyrətməkdən başlamalı, sonra həndəsə, daha sonra astronomiya və nəhayət, musiqi dərsləri verilməlidir; əlbəttə, fəlsəfə təlimi yüksək təhsil deməkdir (*Republic, VII, 522-534*). İstedadından asılı olaraq uşaq bir zümrədən digərinə (aşağı və yuxarı) keçirilə bilər (zümrələr kastalar deyillər!). Bununla təhsilin ən sərt cəmiyyətdə belə bərabər imkanlar yaratma qüdrəti, irəli aparmaq gücü vurğulanır! Platon riyaziyyatı yüksək qiymətləndirməklə, ideallaşdırmaqla yanaşı onu fəlsəfəyə hazırlıq kimi görmüşdür, onu "öyrənilməsi zəruri olan musiqi pərçəmin preludii" saymışdır (*Republic, 531d*).

Platon`un əsərləri məntiqin, deduktiv metodun, isbatın gücünü nümayiş etdirmiş, riyaziyyata maraq oyatmış, həmçinin, bir sıra riyazi anlayış və nəticələr, riyaziyyatçılar, onların həyatı və ölümü haqqında ilkin qeynaq rolunu oynamışdır. Platon Akademiyasının tarixinə, üzvlərinə baxdıqda, ora, riyaziyyatçıların populyar olduğu, riyazi mühitin aparıcı olduğu, riyazi problemlərin müzakirə olunduğu bir zəka ocağı təsiri bağışlayır (xüsusilə Platon`un sağlığında).

5-ci əsrdə yaşamış və Platon, riyaziyyat və riyaziyyatçılar haqqında qiymətli məlumat və şərhlər müəllifi, neoplatonist filosof Proklos Evklidi şərh edərkən yazırdı: "Platon öz səyi, qeyrəti ilə ümumilikdə riyaziyyatın və xüsusi halda həndəsənin çox böyük inkişafına səbəb oldu; hər kəs bilir ki, o, öz yazılarını riyazi mühakimələrlə doldurur, tamamlayır və fəlsəfə öyrənənlərdə hər vasitə ilə riyaziyyata həvəs yaratmağa çalışırdı (*Thomas Heath. A History of Greek Mathematics, vol 1, Oxford, Clarendon Press, 1921 p. 170*).

Platon`un elmi riyaziləşdirmə proqramı

Platon öz "Respublika" kitabında Sokrates`in dili ilə həndəsənin vacibliyindən söhbət açır, ona heç cür biganə qalmaq olmaz deyir (həyati nəticəsi çox böyük olmasa da) və nəhayət, astronomiyanı həndəsə məsələsi kimi görməyin doğruluğunu vurğulayır: "əgər biz mövzuya düzgün yanaşmaq və beləliklə, zəkamın təbii qabiliyyətindən gerçək istifadə etmək istəyiriksə, gəlin astronomiyanı, həndəsədə olduğu kimi, məsələ həlli vasitəsilə öyrənək, göyləri isə öz başına rahat buraxaq" (*Republic, 530bc*).

Platon mücərrəd təfəkkürün, nəzəriyyənin vacibliyini nümayiş etdirməklə təbiətşünaslığı riyaziləşdirmək proqramının həyata keçirilməsində böyük rol oynadı (ənənəyə görə Pifaqordan sonra). Hərçənd ki, Platon riyazi modeli gerçək həyatdan daha düzgün tədqiqat obyekti elan etməkdə suçlandırıla bilər. Platon müşahidəni, ənaqları deyil, riyazi modelləri əsas araşdırma mövzusu sayırdı. O, astronomiyanı deyil, riyazi astronomiyanı vacib hesab etdi! Platona görə əsl astronomiya müşahidə ilə deyil, müşahidə olunanların arxasında dayanan gözəl və mükəmməl riyazi əsəmənin öyrənilməsi ilə məşğul olmalıdır (hisə üzvlərimizlə görmək, müşahidə etmək kifayət deyil və mükəmməl deyil). Platona görə gördüklərimizin arxasında gizlənən gerçəklik müşahidələrin bizə verdiyindən xeyli fərqlidir; ümumiyyətlə, müşahidə ciddi heç nə vermir. Gerçəklik maddi olmayan riyazi ideyadır və məhz onu, bu riyazi ideyanı, ahəngi tapmaq lazımdır. Platon öz müasirləri olan Evdoksos və Arxitas`ın riyazi isbatlarda fiziki arqumentlərdən istifadə etmələrini həndəsənin evini yıxmaq, onun əsaslarını dağıtmaq kimi şərh edir və saf, təmiz mühakimənin hissi təcrübəyə əsaslanmamasını irəli sürürdü (*Plutarch. The Life of Marcellus. In "The Parallel Lives"*). Başqa sözlə desək, Platon çağdaş riyaziyyatın öyrənilməsi və qurulması üçün səciyyəvi olan aksiomlar və onlar üzərində deduktiv yollarla yeni nəticələr əldə etmək üsulunu müdafiə edir. Platon riyaziyyatsız astronomiya öyrənmək istəyənlərə ciddi xəbərdarlıq edir: "Tənbəl və pis kişilərin ruhu qadınlara, astronomiyanı riyaziyyatsız öyrənməyə çalışanların ruhu quşlara, fəlsəfədən uzaq dü-

şəxslərin ruhları yer üzərindəki vəhşi heyvanlara, ən səfehlərin ruhu balıqlara keçəcək (*Platon, "Timaeus"*).

Paradoksal olan budur ki, Platon özü kainata poetik nəzərlə baxmışdır, onun kainata tətbiq etdiyi riyazi model əslində mif səviyyəsinə qalxır (*"Republic", "Timaeus"*). Ümumiyyətlə, yunan düşüncəsi poetik və mifdüzəldici yönə malik idi.

Riyaziyyatçı və elm tarixçisi M. Cline`nin fikrincə "alimlər Platon`un hissi təcrübəni aşağılamasını, etibardan salmasını elmin inkişafına pis xidmət sayıb Platonu günahlandırmaqdan çəkinməmişlər" (*Morrice Kline. Mathematics and the Search for Knowledge, 1985; p. 5*). Platon`un elm fəlsəfəsi barədə fərqli düşüncələr sırası da böyükdür, qədim dünyanın elm tarixçisi G. E. R. Lloyd da o sıradadır: "elm adamı araşdırmasını empirik məlumatların arxasında dayanan mücərrəd qanunları kəşf etməyə yönəltməlidir, bunu israr etməkdə o, haqlıdır" (*G.E.R. Lloyd. Early Greek Science: Thales to Aristotle. W.W. Norton & Company, 1970; p. 79*).


Platon`un ideyaları təbiətşünaslığın riyazileşməsi kimi də şərh oluna bilər; hiss üzvlərimizin hiss edə bilmədiyi, lakin tam gerçək olan təbiət hadisələrinin riyazi fasullar, riyazi modellər vasitəsi ilə tədqiqi - Platon proqramının canı budur! Məgər kvant mexanikası tam Platon`un dediyi şəkildə riyazi modeldən ibarət deyilmi? R. Feinman "cəsarətlə deyə bilərəm ki kvant mexanikasını heç kim başa düşmir" deyərkən (*Ричард Фейнман. Характер физических законов. Москва, «Наука», 1987, стр. 139; Лекция 6*) atomdaxili hadisələrin fiziki mahiyyətini tam dərk edə bilmədiyimizi və qəbul edilmiş riyazi modelə (xətti operatorlar nəzəriyyəsinə və riyaziyyatın digər mücərrəd bölmələrinə) əsaslanmaqdan başqa çarə olmadığını xatırladır. Böyük riyaziyyatçı David Hilbert`in "bizim bu zamanda fizika o dərəcədə çox vacibdir ki, onu fiziklərin öhdəsinə buraxmaq olmaz" fikri də bu qəbildəndir. Çox şeyləri birbaşa görə bilmirik, onları göstərdikləri təsir vasitəsilə hiss edirik, riyazi model vasitəsilə anlayırıq, araşdırırıq. Digər bir vacib fiziki kəmiyyətin - qravitasiyanın fiziki mahiyyəti, səbəbi nədir? Bilmirik. Amma, qravitasiyanı, I. Newton`un müəyyən etdiyi iki cismin bir-birini cəzb etməsi düsturu, yəni, riyazi qanun vasitəsilə anlayır və hesablayırıq, öngörmə, proqnoz edir və nəticə çıxarırıq.

Platon`un mifik riyazi kosmosu. Dörd təməl element və beş Platon cismi

Təbiətşünaslıq dastanı və ya Təbiət mifologeyası adlandırıla bilən "Timaios/Timaeus" dialoqu Solon`un dili ilə əfsanəvi Atlantida barədə söhbətdən başlayır, sonra ideal dövlət quruluşu, ailə, tərbiyə və təhsil məsələlərinə toxunur, digər yandan isə Kainatın yaranması, hərəkətin və əbədiliyin, o cümlədən təkrarlanan dövri hadisələrin mahiyyəti, insanın meydana çıxması, həyat tərzi kimi məsələlərdən danışır. Platon siyasət fəlsəfəsinə həsr olunmuş "Respublika" əsərində də Kainat və səma cisimləri haqqında görüşlərə yer ayırmışdır - alleqorik mifik donda. "Timaeus" Platon`un kosmoloji və riyazi məsələləri ortaya qoyduğu məşhur, ən çox öyrənilən və şərh edilən, eyni zamanda da ən anlaşılmaz əsərlərindən biridir. Rasional və mifik düşüncənin qovuşduğu bu əsərdə Platon, sanki, riyazileşmiş Homer və Hesioddur!

"Timaeus" haqqında bir-birinə zidd çox fikir söylənmişdir; neqativ baxışlardan ikisini yada salıram. "...Onun içində, başqa əsərləri ilə müqayisədə, əlbəttə ki, sadəcə daha çox səfeh şeylər var" (*B. Russell. The History... p. 143*). "Timaeus"un təsiri son zamanlara qədər çox böyük və əsasən iblisanə olmuşdur" (*Sarton. Ancient Sci...p. 423*). Fərqli fikirlərə aşağıda yer ayrılacaq.

Kosmos işıqlı od və maddi torpaqdan əmələ gəlib, onların arasında mövcud olan (yaradılan) su və hava da kosmosun tərkib hissəsidir; onların yuxarıdan aşağıya düzülüşü məyyən qaydalara, tənasüblərə tabedir. Beləliklə, Kainat Empedokles`in sadaladığı dörd təməl elementdən təşkil olunmuşdur. Kainat mərkəzində Yer dayanan ən mükəmməl fiqur, yəni kürə şəklindədir. Platon öz tələbəsi Aristotel`dən fərqli olaraq kainatı tərkib və xassə etibarilə iki fərqli hissəyə ayırır; o, sadəcə, səma cisimlərinin oddan yaradılmış olduğunu deyir. Göylər və zaman eyni vaxtda yaradılmış, Günəşin yaradılması gecə və gündüzün əmələ gəlməsi və növbələşməsinə, həmçinin saylara (hesaba) gətirib çıxarmış və son nəticədə fəlsəfənin yaran-




Bertrand Russell

masına səbəb olmuşdur.

Planetlər sferalara bərkidilib və bu sferalar öz planetləri ilə eyni rəngdədir. Sferalar arasındakı məsafə bir oktavadır, hər sfera üzərində bir sirena əyləşib və o "öz" musiqisini, öz havasını çalır. Ay ən sürətlə, Günəş, Venera və Merkuri eyni sürətlə fırlanırlar (digər planetlər müxtəlif sürətlə, Yerdən uzaq olduqca daha yavaş sürətlə dövr edirlər), amma Venera və Merkuri Günəşin tərsi istiqamətində fırlanırlar və bu səbəbdən də ona çatır və onu ötürlər. Bütün səma cisimləri (onların ruhu var) müntəzəm dairəvi hərəkət edirlər. Onların Yerdən olan məsafəyə görə yə-

xından uzağa düzülüşü belədir: Ay, Günəş, Venera/Afrodita, Merkuri/Hermes, Mars/Ares, Yupiter/Zevs, Saturn/Kronos və ulduzlar sferası (*"Republic", VII*). Üstəlik, Ayın Yerdən olan məsafəsi 1 olsa (şərti ölçü), onda digər səma cisimlərinin Yerdən uzaqlığı uyğun olaraq Günəş-2, Venera-3, Merkuri-4, Mars-8, Yupiter-9, Saturn-12-dir. Bu səma cisimlərinin Yer etrafında dövr etmə müddətlərini Platon qəribə rəqəmlərlə ifadə edirdi ("Timaeus").

Pifaqoryu baxışlar üzərində qurulan "Timaeus"in sonuncu hissəsində - kosmoloji, fiziki, riyazi, bioloji hissədə Platon kainatın əsasında duran dörd təməl elementlə düzgün qabarıq çoxüzlülər arasında əlaqə yaratmağa çalışmışdır. Müstəvi halında düzgün qabarıq çoxbucaqlılar sonsuz saydadır. Fəza-stereometriyada isə yalnız beş düzgün qabarıq çoxüzlünün mövcud olması, sözsüz ki, riyaziyyatçı və filosofları heyrətə salmalı, bu gözəl həndəsi fiqurların bir mistik rol oynamaları barədə düşüncələrə yol açmalı idi... Beş düzgün çoxüzlülər və ya requlyar cisimlər Platonun şərəfinə Platon cisimləri adlandırılır.



Platon cisimləri çox maraqlı xassələrə malikdirlər. Asanca görmək olar ki, onların təpə nöqtələrinin sayı (V), tillərinin sayı (E) və üzlərinin sayı (F) arasında dəqiq münasibət mövcuddur: $F-E+V=2$.

Platon burada, sanki, həndəsi və atomçu nəzəriyyəsini irəli sürür. Platona görə dörd təməl elementin hər biri özünəməxsus formaya malik hissəciklərdən təşkil olunub, biz o hissəcikləri çox kiçik olduqları üçün görmürük. Torpaq kublardan təşkil olunub; kub beş düzgün çoxüzlülər içində ən dayanıqlı olanıdır, elə alanda yapışıb qalır, hər üzü kvadratdır və Yerdə asan oturur, kubları rahat yan-yana düzmək, döşəmək mümkündür. Su, hava və od hərəkətlidirlər, müqayisədə alov ən hərəkətcil, hava orta hərəkətcil, su onlardan az (amma) hərəkətcildir. Tetraedr-od ən itibucaqlı, itiuclu (deşir, yandırır), oktaedr-hava orta itiuclu, ikosaedr-su az itiucludur. Od hissəcikləri ən kiçik, havanın hissəcikləri orta böyüklükdə, su hissəcikləri ən böyükdürlər. Platon 5-ci düzgün çoxüzlünü - dodekaedr`i Tanrı seçimi ilə şərəflandirir, onu nümunə sayır, göyləri, kainatı təşkil edən hissəciklərin mükəmməlliyə-sferaya ən yaxın olan dodekaedr` lərdən ibarət olduğunu deyir. Üstəlik, Platon bu beş düzgün çoxüzlülərin səthlərinə ayrıca maraq göstərir və hər bu səthin bəlli sayda düzbucaqlı üçbucaqlardan (bərabəryanlı, yəni, bucaqları 90°, 45°, 45° olan üçbucaqlardan və bir kateti hipotenuzun yarısına bərabər olan, yəni, bucaqları 90°, 60°, 30° olan üçbucaqlardan) təşkil olunduğunu xüsusi qeyd edir (məsələn, kubun səthi 24 düzbucaqlı üçbucaqdan ibarətdir).

Beləliklə, Platon`un düzbucaqlı üçbucaqları atom kimidirlər; Platon və Aristotel antiatomçu idilər; xüsusi halda, boşluğu, vakuumu qəbul etmirdilər. Platonun xırda hissəcikləri ixtiyari şəkildə və ölçüdə deyil, onlar xüsusi formaya malikdirlər. Kainatı və bioloji/fizioloji prosesləri Platon üçbucaqların bioloji/fizioloji xassələri ilə izah edir; davranış tək tərbiyə ilə bağlı deyil, həm də fizioloji səbəbi ola bilir. Aristotel öz fizikasında efiri Aylıtü aləmin, dörd təməl elementi Ayaltı aləmin təşkiledicisi saymaqla Platona bir qədər uyğun gəlsə də, kainatın quruluşunda düzgün çoxüzlülərə yer ayırmır.

Platon`un bu seyrçi həndəsi modeli tam aydın deyil, onda anlaşılmazlıqlar var. Su, hava və alov - bu üç təməl element bir-birinə keçə bilir - ikosaedr, oktaedr və tetraedr`in səthlərini təşkil edən üçbucaqları sökülb, xırdalayıb yenidən yığmaqla, torpaq – kub isə bu cür çevrilə bilmir.

Platon, Kepler və Heisenberg

17-ci əsrdə elmi inqilab edən böyüklərdən birinin - Johannes Kepler`in "Mysterium Cosmographicum"(The Cosmographic Mystery) adlı astronomiya kitabının (1596, second edition in 1621) tam adı və əlbəttə ki, məzmunu beş qabarıq düzgün çoxüzlünü (Platonic solids) özündə ehtiva edir: *Forerunner of the Cosmological Essays, Which Contains the Secret of the Universe; on the Marvelous Proportion of the Celestial Spheres, and on the True and Particular Causes of the Number, Magnitude, and Periodic Motions of the Heavens; Established by Means of the Five Regular Geometric Solids*. Kepler Kainatın həndəsi mənzərəsini Platon cisimləri və onların daxilinə və xaricinə çəkilmiş və birbirindən məsafələri musiqi terminləri ilə ifadə olunan sferalar vasitəsilə verməyə cəhd etmişdi.





Üstəlik, Kainatı xristian teologiyası ilə uyğunlaşdırmışdı: Kainat – Tanrının surəti, Günəş – Ata, ulduzlar sferası – Oğul, onlar arasındakı Fəza – Müqəddəs Ruhun surəti idi. Platon`un davamçısı kimi Kepler Yaradan`ın dünyanı həndəsi model əsasında qurduğunu deyirdi.



Johannes Kepler (1610-cu il, naməlum rəssam tərəfindən çəkilmiş şəkil)

Kvant mexanikasının qurucularından biri olan Werner Heisenberg Platon`u yaxşı bilir və sevirdi. O, öz kvant mexanikası ideyasının təşəkkülündə Pifaqoras`ın və Platon atomizminin rolu olduğunu qeyd edirdi. Heisenberg "Timaeus"ı ilk dəfə oxuyarkən, "Platon niyə belə absurd şeylər yazıb", deyə düşünmüş, onda bir narahatçılıq qalmışdı (*В. Гейзенберг. Физика и философия. Часть и целое. Москва, Наука, 1989; стр. 143-144*). Daha sonra Platon`un ideyası ona yol göstərmiş, onu ilhamlandırmışdı. Heisenberg`ə görə Platon`un materiyanı deyil, riyazi qanunu, simmetriyanı, riyazi formanın rolunu önə çəkməsi çağdaş atom fizikası ilə səsləşir (*səh. 371-372*). Platon`un zərrəcikləri olan düzbucaqlı



Werner Heisenberg

üçbucaqların fəza boyu yoxdur (iki ölçülüdürlər), onlar materiya deyillər. Platonun fiqurları (və dörd təməl element) atomlar deyildi, onları üçbucaqlara ayırmaq və yeni düzgün cisimlər düzəltmək olurdu. Elementar zərrəciklər də əsasən bir-birinə keçə bilirlər.


Demokrites`lə müqayisədə Platon formanın qurucu rolunu daha aydın vurğulayır (*В. Гейзенберг. Физика... стр. 371*). Platon dörd təməl elementə qarşı dörd düzgün çoxüzlü qoymaqla yüksək simmetriyanın vacibliyini yada salır. "Çağdaş fizika Demokrites`in fikri əleyhinə çıxır, Platon`un və Pifaqorçuların tərəfində durur" (*səh. 36*). Çağdaş fizika, təbii ki, Platon fiqurları ilə deyil, çevirmə qrupları və riyazi tənliklərlə işləyir. Qədim yunan fəlsəfəsi intellektual-intuitiv, yeni dövr elmi isə analitik, riyazi-təsviri xarakter daşıyır (*səh. 386*). Riyaziyyat, nəcəsə, bizim təcrübəmizdən doğan formalarla uyğunlaşır. Çağdaş elmin doğruluq kriteriyası təcrübə ilə uyğunluq və nəzəriyyənin intellektual gözəlliyidir, təcrübə ilə uzlaşmayan nəzəri gözəllik elmi baxımdan lazımsızdır.

Platon və riyaziyyatçılar

Platon Akademiyası riyaziyyatçıların sevdiyi yer idi, tanınmış riyaziyyatçıların Akademiyaya gəlməsi, öyrənməsi, öyrətməsi bunu deyir. Platon riyazi problemləri bilir və riyaziyyatın vacibliyini təbliğ edirdi. Platon riyaziyyatçılara ilham və ideya verir, onlar qarşısında suallar qoyurdu. Platon`un riyazi biliklərinə şübhə ilə yanaşan G. Sarton belə onun riyaziyyatçıların yetişməsində böyük rol oynadığını deyir: "O, riyaziyyat yaratmırdı, amma riyaziyyatçıları yaradırdı" (*Sarton. Anc. Sci, p. 436*).

Akademiyanın riyaziyyatçı liderləri arasında Afinalı Teetetos ("?-417" - "-369"; yunanca Teaitetos) və Knidli Evdoksos ("?-408" - "-355") seçilirdilər. Teetetos həndəsi yolla ortaq ölçüsüz kəmiyyətləri tədqiq etmiş, kvadrat köklərdən əmələ gələn irrasional (*alogos*) ədədlər və nisbətlər təliminin müəlliflərindən biri sayılır (Evklid`in "Elementlər"ində 10-cu kitab). Belə bir fikir də mövcuddur ki, Platon cisimləri adlandırılan düzgün qabarıq çoxüzlülər nəzəriyyəsini məhz Teetetos tam şəklə salmışdır. Ənənəyə görə düzgün çoxüzlülər haqqında ilk dəfə Teetetos yazmışdır. O, isbat etmişdir ki, yalnız beş düzgün çoxüzlü ola bilər (uyğun olaraq 4, 6, 8, 12, 20 bərabər üzlü); kub, düzgün piramida və dodekaedr`ı Pithaqorosçuların, oktaedr və ikosaedr`i isə Teetetos`un daxil etdiyi deyilir.

Teetetos, eləcə də Platon özü riyaziyyatçı Kirenli (indiki Livyada) Theodoros`un (?"-465" - "-398") tələbəsi olub (ənənə belə deyir). Theodoros ortaq ölçüyəgəlməz kəmiyyətləri, müəyyən sayda irrasional kvadrat kökləri, daha dəqiq desək, $\sqrt{3}$, $\sqrt{5}$, $\sqrt{7}$, $\sqrt{11}$, $\sqrt{13}$, və $\sqrt{17}$ köklərini öyrənmiş, Teetetos bu məsələdə ondan qaynaqlanmışdır ($\sqrt{2}$ - nin irrasionallığı daha əvvəlki pifaqorçular tərəfindən kəşf edilmişdi). Theodoros`un bu ölçüyəgəlməzlikləri qurmaq üçün Pithaqoros teoreminə bənzər həndəsi ideyadan istifadə etməsi təbii görünür (katetləri uyğun seçməklə; məsələn, bir kateti 1, digər kateti $\sqrt{2}$ olan düzbucaqlı üçbucağın hipotenuzu $\sqrt{3}$-ə bərabərdir. Öz növbəsində, Theodoros Protaqoras`un tələbəsi idi.



Platonun "Teetetos" dialoqunda Sokrates Theodoros`a sual verir: həndəsəni sevən ümidverici gənclər varmı? Theodoros cavabında Teetetos`un adını çəkmiş (üstəlik, "görünüşcə o da sənin kimi çirkindir" demiş), Sokrates Teetetos`u da söhbətə, "bilik nədir, o necə əldə olunur" məsələsi ətrafında mübahisəyə cəlb etmişdi. Sokrates`in "mən də (anam kimi), demək olar ki, mamaçayam, anam qadınlarda uşağı tuturdu, mən isə adamlarda fikrin doğuluşunu tuturam/təmin edirəm" məşhur fikrini dediyi bu dialoqda ölçüyəgəlməz kəmiyyətlər məsələsinə də toxunulur. Həmin dövrdə riyaziyyatı zənginləşdirən, ona yeni üsul və yeni nəticələr əlavə edən digər riyaziyyatçılar da vardı; məsələn, Proklos Platon`un müasirləri olan bəzi riyaziyyatçıların adını çəkir, onların maraqlı işlər gördüklərini deyir (bax: *Thomas Heath. A History of Greek Mathematics. Volumes 1, 2. Oxford, Clarendon Press, 1921*).


Platonun dostu, onu böyük təhlükədən xilas edən, geniş düşüncəli elm və dövlət adamı (və *"ən böyük musiqi nəzəriyyəçisi"* - *K. Ptolomey*) olan Arxitas Pifaqorasçı Filolaos`un tələbəsi olmuş, öz növbəsində Evdoksos və digər riyaziyyatçı - astronomların müəllimi sayılır. Arxitas riyazi təhsilin *kvadrium* adı almış dörd tərkib hissəsindən söhbət açmışdı: durmuş ədədlərə aid *hesab*, durmuş kəmiyyətlərə aid *həndəsə*, hərəkətli kəmiyyətlərə aid *astronomiya* və hərəkətli ədədlərə aid *musiqi*. Platon öz filosof yetişdirmə proqramında bu dördlüyü ön çəkmiş, həndəsənin müstəvi və üçölçülü cisimlər hissələrini ayrıca vurğulamış, astronomiyanı həndəsənin içində vermişdi (*Republic, VII*).

Evdoksos Akademiyanın (və dövrünün, yəni, dünyanın) ən güclü riyaziyyatçısı və astronomu idi; "Elm baxımından Platon dövrü Evdoksos dövrü adlandırılmalıdır" (*Sarton. Ancient Sci...p. 442*). Evdoksos Terentum`a (Magna Graecia) gedib orada Arxitas`ın tələbəsi olmuş, riyaziyyatın müəyyən incəliklərini (güman olunur ki, həndəsə, ədədlərin təbiəti və musiqi nəzəriyyəsini) onun yanında öyrənmişdi. Afinaya gəlib Platondan dərs almışdı. O, imkansız olduğuna görə Afinada deyil, Peiraicos`da qalır və hər gün Akademiyaya gəlmək, Platon`un mühazirəsinə qulaq asmaq üçün 8-9 km piyada yol qət edirmiş. Evdoksos, deyilənə görə, Misirə getmiş, orada riyazi-astronomik biliklərini genişləndirmişdi. Başına cəm olmuş tələbələri ilə birlikdə Platon Akademiyasına qoşulmuş, Platon onun şərəfinə məclis düzəltmişdi (*Sarton. Ancient Sci...p. 442*). (-3)-cü əsrin birinci yarısında yaşamış Aratos adlı şair Evdoksos`un "Fainomena" adlı astronomiya kitabından istifadə etməklə eyni "Fainomena" adlı poema yazmış, həmin poemanı sonralar böyük astronom Hipparxos şərh və tənqid etmişdi.

Ölçüyəgəlməzlik və ya Ölçülməzlik, yəni, bəzi uzunluqların və ümumiyyətlə, kəmiyyətlərin rasional ədəd olmaması meydana çıxdıqdan sonra yunanlarda ədəd anlayışı böhrana girmişdi. Onlar ədəd deyəndə

ölçülməsi mümkün olan tam və kəsr, yəni rasional ədədləri başa düşürdülər. İrrasional ədədlərin təbiətini anlamaq, onlar üzərində hesab əməli yaratmaq o dövr üçün çox çətin və ya qeyri-mümkün idi. Platon`un həndəsəçi elan etdiyi Tanrı hesabçılıq etmirdi... Nəticədə yunan riyaziyyatçıları ədədə və ədədlərin nisbətinə həndəsi yanaşmadan istifadə etdilər. Rasional olmayan ədədi müəyyən xəttin uzunluğu kimi şərh etmək olardı (məsələn, $\sqrt{2}$ hər iki kateti birə bərabər olan düzbucaqlı üçbucağın hipotenuzunun uzunluğudur). Ölçüyəgəlməz kəmiyyətlərin nisbətlərini (məsələn, a:b və c:d) necə müqayisə etməli? Onlar müxtəlif təbiətli, müxtəlif ölçülü kəmiyyətləri təmsil edə bilirlər; məsələn, a və c - uyğun iki dairənin sahəsi, b və d - həmin dairələrin radiuslarının kvadratı olanda müxtəlif təbiətli, müxtəlif ölçülü kəmiyyətlər olan sahə və uzunluq ortaya çıxır və bu halda a:b = c:d yaza bilmirdilər. Evdoksos bu nisbətlər nəzəriyyəsini inkişaf etdirmişdi. Evklid öz "Elementlər"inin 5-ci kitabında Evdoksos`un nəzəriyyəsini sistemləşdirmişdir.

Proklos`a görə Platon və Teetetos`un müzakirə etdikləri və sonralar "ilahi nisbət" və ya "qızıl nisbət" adlandırılacaq riyazi ideya Evdoksos tərəfindən tam dəqiqləşdirilmişdir (kimin nə və nə qədər etdiyi tam bilinmir). A və B nöqtələri arasında (onları birləşdirən düz xətt üzərində) onları "ən gözəl nisbətdə" bölən C nöqtəsini müəyyən etmək lazımdır.



AC uzunluğu x, CB uzunluğu b olsun; bu halda AB-nin uzunluğu x+b olur. Bu nisbətə verilən tərifə görə x:b = (x+b):x. Buradan x məchulunun müsbət qiyməti tapılır: $x = b(1+\sqrt{5})/2$. "Ən gözəl nisbət" isə x:b, yəni $(1+\sqrt{5})/2$ -ə bərabərdir. Platonun "ən gözəl" nisbəti sonralar (Renessans sonrası Avropada) "qızıl nisbət" və ya "qızıl orta" adını aldı, gözəlliyin sirri kimi şöhrət tapdı, riyaziyyatdan çox incəsənətdə işlənildi.

Evdoksos aksiomlar üzərində riyaziyyat qurulması ideyasının banisi və ya banilərindən biri sayılır. O, kanonik həndəsi fiqurların sahə və həcmlərinin hesablanması üzrə mühüm nəticələr almışdır. Bugünkü dillə desək, Evdoksos sonsuz proseslərin limiti anlayışına gəlib çıxmış, əyrixətli sərhəddi olan həndəsi fiqurların sahələrini və həcmlərini hesablamağa çalışmışdır. Arximedes bu cür hesablamaları əsaslandırmaq üçün tətbiq etdiyi prinsipin Evdoksos`a məxsus olduğunu bildirir; bu gün həmin prinsip Arximedes aksiomu adı ilə tanınır (istənilən a ədədi verildikdə, ondan böyük müsbət tam n ədədi tapmaq olur: $a < n$). Bu üsul tamamlama və ya bitirmə metodu adını almışdır. Çağdaş riyaziyyat dilində sahə və həcmlərin bu yolla hesablanması müəyyən inteqral hesablamaq deməkdir . Evdoksos təqvimin təkmilləşdirilməsi işində də yenilik etmiş, ayların sayı ilə günlərin sayını və onları Günəş ili ilə uyğunlaşdırmaq məsələsi ilə bağlı çalışmışdı (*A. Pannekoek. A History of Astronomy, Ruskin House, London, səh. 119 -ruscada*); Babillər kimi Ay təqvimini işlədən yunanlar onu Günəş ili ilə uyğunlaşdırmağa məcbur idilər.

Evdoksos`un əsərləri itmişdir, bu əsərlər haqqında məlumat Aristotel, Evklid, Arximed, Hipparxos və digər müəlliflərin yazılarında qalmışdır. Aşağıdakı birinci kitab yunan riyaziyyat dövrü haqqında dolğun məlumat verir, ikinci isə bir sıra xüsusi problemləri vurğulayır:


• Thomas Heath. A History of Greek Mathematics. Volumes 1, 2. Oxford, Clarendon Press, 1921.

• D. H. Fowler. The Mathematics of Plato's Academy: A New Reconstruction. Oxford, Clarendon Press, 1999.

Platon və astronom - riyaziyyatçılar

Kilikiyalı Simplisios`un (6-cı əsr) Peripatetik Sosigenes`ə (2-ci əsr), Socigenes`in riyaziyyat tarixçisi Eudemos of Rhodes`ə ("-4"-cü əsr, Aristotelin tələbəsi və dostu) əsaslanaraq verdikləri məlumata görə Platon astronomlar qarşısında planetlərin mütəzəm dairəvi hərəkətini, eləcə də zaman-zaman sanki dövri olaraq geriyə hərəkətini izah edən həndəsi model qurmaq məsələsi qoymuşdu (*Sarton. Anc. Sci...p. 449*). Bu qəribə fenomeni, yəni geriyə dönüşü və ya uyğun görüntünü, izah etmək, "fenomeni xilas etmək" lazım idi. Başqa sözlə desək, Platon astronomiyanın riyazi modelini yaratmaq məsələsi qoymuşdu. Sarton Platon`un belə məsələ qoyduğuna şübhə edir (*Sarton. Ancient Sci...p. 449*).

Planetin öz yolunda 8-ə bənzər bir trayektoriya – "hippoped", yəni "at yolu" cızıb yenidən öz mütəzəm dairəvi yoluna davam etmə hərəkəti manejdə atları 8-ə bənzər hərəkət etdirmək adətindən ad almışdı.



"Planetlərin geriyə hərəkəti" gözlə görüntünün illüziya olabiləcəyini, görüntünün deyil, ağlın süzgə-

cindən keçməyin zəruriliyini deyir (*Republic, VII, 529*). İş burasındadır ki (Heliosentrik sistemə görə!), Yer Günəş ətrafında dövr edərkən daha az sürətlə dövr edən xarici planetləri ötüb keçir və öz növbəsində daha böyük sürətlə dövr edən daxili planetlər Yeri ötüb keçirlər. Bu ötüb-keçmə Yerdən baxanda planetin ulduzlar arasında bəzən geriyə hərəkət etdiyi təəvvürünü yaradır.

Evdoksos fenomeni xilas edə bilən həll təklif etdi. Evdoksos`un modeli beş məlum planetin hər biri üçün mərkəzi Yer kürəsi, firlanma oxları fərqli olan müxtəlif sürətli dörd sferanın müntəzəm hərəkəti üzərində qurulmuşdu. Bu modeldə Günəş və Ayın hərəkəti hər biri üç sfera ilə izah olunurdu (onlarda geriyə hərəkət olmadığı üçün artıq sferaya ehtiyac yoxdu). Evdoksos hər planet ətrafında bir deyil, çox sferanın olmasını, hər bir sferanın müntəzəm hərəkətinə baxmayaraq onların cəminin (yəni birgə hərəkətinin) müəyyən qeyri-müntəzəm hərəkət ("geriyə hərəkət") yaratması üçün düşünmüşdü. Bir sfera da tərpənməz sayılan ulduzlar üçün ayrılmışdı. Beləliklə, səma cisimlərinin hərəkətini 27 sfera ilə izah edirdi. Bu "Homosentrik sferalar nəzəriyyəsi" planetlərin hərəkəti haqqında ilk riyazi model idi; homosentrik sferaların məzmunu və sayı uğrunda çalışmalar astronomiyada mühüm yer tutdu.

Kuzikos`lu Kalippos (? "-370" - ? "-300") həm Platon Akademiyasında, həm Aristotel Liseum`unda oxumuşdu. O, Evdoksos`un kainat riyazi modelini daha səliqəli etmək üçün konsentrik sferaların sayını 34-ə çıxarmışdı. Kalippos`un ən yadda qalan kəşfi fəsillərin uzunluğunu yaxşı dəqiqliklə hesablamasıdır. Aristotel Evdoksos`un (və Kalippos`un) nəzəriyyəsinə əsaslanaraq öz 56 sferalı kosmos modelini fiziki gerçəklik kimi irəli sürmüşdü (izahedici model kimi deyil). Aristotelin modeli də bəzi suallara cavab verə bilmirdi. Məsələn, Venera və Marsın parlaqlıq dərəcəsi niyə zaman-zaman çox dəyişir?

"Aristotel`ə görə Platon Yer kürəsinin öz oxu ətrafında firlandığına inanırdı"; Theophrastos`a görə "Platon yaşlı vaxtlarında Yerə Kainatın mərkəzi yerini verdiyinə peşman olmuşdu, onun buna haqqı yoxdu" Sarton bu məlumatı da təkzib etməyə çalışır - Platon`un öz yazılarına ziddir deyərək (*Sarton. Ancient Sci...p. 451*), halbuki, Aristotel Platon`un bir sıra görüşləri şifahi söyləyib qələmə almadığını qeyd etmişdi.

Akademiyaya gəlib Platonun tələbəsi olanlar arasında Pontlu (indiki Zonguldak yaxınlığı) Heraklides (?-390, ?-310) də vardı. Heraklides Yer kürəsinin öz oxu ətrafında bir gün (24 saat) ərzində dövr etdiyini irəli sürmüş, həmçinin kainatın/kosmosun sonsuz olduğunu söyləmiş və bu fikirlərlə öz müasirlərindən (və bir çox sonrakı dövr fikir adamlarından) fərqlənmişdir. (-4)-cü əsrdə yaşamış Magna Greacia`lı iki Pifaqorçunun - Hiketas və Ekfantos`un da Yer kürəsinin öz oxu ətrafında firlanması fikrində olduqlarını deyir.

Platon və poeziya

Ritm və ahəng üzərində qurulan, ezbərlənən və məkan və zaman boyu ötürülə bilən şeir nəsrdən xeyli əvvəl yaranmışdır. İlk yunan filosofları əsərlərini şeirlə yazır, təbiətin mistik, poetik və fəlsəfi təsvirini şeirlə verirdilər (Heraklites`in yazı dili nəsrlə olsa da, ruhən poetik və atmacalı idi). Platon da gəncliyində eşq şeirləri yazmış (nümunələri qalıb) və musiqi ilə məşğul olmuş, lakin, Sokrates`lə yaxından görüşüb onun tələbəsi olduqdan sonra şeir və musiqidən əl çəkmiş, fəlsəfə və riyaziyyata böyük maraq onu öz qoynuna almışdı.

Platon`un dialoqları Eşxil`lə (-525, -456) başlanan yunan dram-səhnə sənətinin və Herodotos`la (-484, - 426) ciddi sıçrayış edən yunan nəsrinin fəlsəfi-poetik davamı olmaqla qədim yunan bədii nəsrinin ən parlaq nümunələri sırasındadır. Aristotel`ə görə Platonun dili nəsrlə poeziya arasındadır (*Diogenes Laertios. Platon - 37*). Platonun əsərləri gözəl ifadəli dili ilə, metaforlarla, miflərlə, yunan şairləri, dramaturqları və filosoflarından maraqlı alıntılarla zəngindir, hissləri də, zəkanı da qidalandırmaq qüdrətindədir. Şübhə və vurğunluq, mif və rasionallıq, riyaziyyat və poetika onlarda yan-yanadır. "Sokrates`in apologiyası", "Kriton" və "Fedon", "Ziyafət" və "Fedros", "Protaqoras" və "İon" tək klassik fəlsəfənin deyil, dünya ədəbiyyatının şah əsərləri sırasına daxildir. Platonun fəlsəfəsi və elmi görüşlərini tənqid edənlər belə onun yazar cazibəsini etiraf etmişlər, məsələn, "Platon şair və metafizik idi, Qızıl Çağ`ın nəsr dilini, ədəbi vasitəni, demək olar ki, inanılmaz zəriflikle çox gözəl istifadə edən bir sənətkar idi" (*Sarton. Ancient Sci...p. 426*).

Platon`un fəlsəfəsi tək müdrikliyə sevgi ilə kifayətlənmir, elmi-bədii rəng alır. Platon`un əsərlərində gözəllik ağlın gözü ilə, ağlın parıltısı, ağlın sezgisi ilə kəşf olunur. Platon fikirdə filosof, ifadədə şair idi. Platon`un şair və filosofsayağı sərbəst və obrazlı yazı tərzi ilə Aristotelin çox yığcam elmi yazı üslubu bir-birindən çox fərqlənirlər. "Şair olanı deyil, ola bilənləri qələmə alır" - Aristotel bu sözlərlə (*Poetika, 51, A36-B10*) poeziyanın gücünü, onun fəlsəfəyə yaxınlığını qeyd edirdi. Platon isə məhz şairin ola bilənləri, arzu və fantaziyalarını yazmasını, təqlidçiliyini mənəviyyat baxımından təhlükəli sayırdı.

Platon`un işlədiyi elmi-fəlsəfi dialoq metodu bir ədəbi model kimi fəlsəfi-psixoloji və elmi əsərlərdə qədim dövrdən başlayaraq (Plutarch, Cicero) təqlid və tətbiq edilmişdir. Galileo Galilei və onun iki əsas elmi əsəri - "Dialogue Concerning the Two Chief World Systems" (1632) və "The Discourses and Mathematical Demonstrations Relating to Two New Sciences" (1638) Platonsayağı dialoqla, hər ikisi üç şəxsin söhbəti şəklində yazılmışdır. Kimyanın atalarından biri sayılan Richard Boyle 1661ci ildə Londonda nəşr olunan "The Sceptcal Chymist: or Chymico-Physical Doubts & Paradoxes" (Şübhələnən kimyagər: kimyəvi-fizik şübhələr və paradokslar) kitabını əsasən beş elm adamı arasında söhbət şəklində yazmışdı. Kvant mexanikasının yaradıcılarından biri olan Werner Heisenberg`in fəlsəfi düşüncələrlə dolu avtobioqrafik "Hissə və tam" əsərini Carl Friedrich von Weizsäcker əsl Platon tipli kitab - yeni dövrün ona məlum olan yeganə Platonsayağı dialoqu adlandırmışdı (*Heisenberg, p. 365*).

"Respublika"nın son kitabında poeziya və onun ideal dövlətdə tutmalı olduğu yer haqqında Platonun fikirləri xüsusi yer tutur. "Gorgias" və digər dialoqlarda da bənzər fikirlərə rast gəlinir. Platon`un ideal şəhərində poeziya, dram və incəsənətə yer ayrılsa da, onların xüsusi seçilməsi çox vacib idi. Platon`a görə şair həqiqəti təhrif edir, uydurmaçıdır, ağlı kütləşdirən hissələr yaradır, nəşə və ya ağrı verir, ciddi düşünməyə mane olur. Sənət imitasiyadır, oyundur, baş qatır, hisslərə və davranışa təsir edir, özünə cəzb edib yoldan çıxara bilir, buna görə də təhlükəlidir...Tanrılar və qəhrəmanları zəif və qüsurlu göstərən, mənəviyyatı pozan, ölümdən qorxu hissi yaradan əsərlər qadağan olunmalıdır. Bu baxımdan hamımı, bütün şairləri, o cümlədən Homeri təftiş etmək, senzuradan keçirmək və ya qadağan etmək lazım gəlir; uşağın tərbiyəsini pozan, onda qorxu hissi yaradan və ya onu sentimental edən hər şey yaramazdır, hər şeydə ölçünü gözləmək lazımdır. Hərçənd ki, Platon Homer`in gücünü yaxşı bilir, ondan alıntılar edir, onun yunan mədəniyyətində böyük rolunu yaxşı dərk edirdi; "insanlara rəhbərlik etmək, onları tərbiyə etmək istəyən kəs bu şairi diqqətlə öyrənməli və öz həyatını ona uyğun qurmalıdır" (*606E-607*). Ümumiyyətlə, "az-çox savadlı insan üçün poeziyanı bilmək, anlamaq çox vacibdir" (*Platon, "Protagoras"*).

Homer "Hellas`ın müəllimi" adı alsa da, "Homer muzasını dövlətimizə buraxsaq, qanun və loqos əvəzinə həzz və əzab meydan alar" (*Republic, 7*). Aristokratları aşağılayan əsərləri oxumaq və ya tamaşaya qoymaq olmaz. Ciddi (elmli, fəlsəfi, patriotik) şeirlər, Tanrı və qəhrəmanları vəsf edən əsərlər məqbuldur. Başqa sözlə desək, sənət ideal dövlətin ideologiyasına xidmət etməlidir. Yaradıcı insan öz işinə, mövzusuna vurulmasa, mübtəla olmasa gözəl əsər meydana çıxara bilməz, "şair yüngül, qanadlı və müqəddəs varlıqdır; o, ilhamlanmamış, haldan çıxmamış, ağlını itirməmiş yarada bilməz" (*Ion, 534 AB*). Fəlsəfə - müdriklik, poeziya - dəlilik (*"dəli şair", dəli könül"* – H.İ.), çılğınlıq qaynağı ola bilir. Fikir naminə yazan filosof adına layiqdir, ancaq yazmaq xatirinə, sənət xatirinə yazan şairdir (*Phaedrus, 278 B-E*). Bu məsələdə Platon istedadın, çalışqanlığın, təlim və təhsilin rolunu qiymətləndirmir.

Platonun ideal dövlət ideologiyasını poeziya əleyhinə yönəldən daha bir qüvvə, mümkündür ki, poeziyanın populyarlığı, onun fəlsəfəyə rəqib olmasıdır. Şair dinə də rəqib ola bilir (şair sevgini dindən üstün tuta bilir). Quran`da deyilən "şair yalançıdır" fikri və ümumiyyətlə, şairləri tənqid edən ifadələr bu qəbildəndir. "Biz ona şeir öyrətmədik və bu ona heç yaraşmaz da. Ona vəhy olunan ancaq öyüd-nəsihət və açıq-aşkar Qurandır ki..." (*36:69*). "Şairlərə gəlincə, onlara yalnız azğınlar uyar!" (*26:224*). "Məgər görmürsənmi ki, onlar hər vadidə sərgərdan gəzib dolaşırlar?" (*26:225*). "Və onlar etmədikləri şeyləri deyirlər [Onların dediklərinin əksəriyyəti yalandır]" (*26:226*). "Ancaq iman gətirib yaxşı işlər görən, Allahı çox zikr edən və zülmə uğradıqdan sonra intiqamını alanlardan başqa!" (*26:227*).

Platon və poeziya mövzusu haqqında çox yazılmışdır. Aşağıdakı ədəbiyyat bu sahədə bələdçi ola bilər:

• Gerald F. Else. Plato and Aristotle on Poetry. Chapel Hill and London, 1986.

• Penelope Murray, ed., Plato on Poetry. Cambridge, 1996.


• Plato and the Poets. Editors: Pierre Destrée and Fritz-Gregor Herrmann. Brill, 2011.

• G. Ferrari. "Plato and Poetry" in G. Kennedy, ed., The Cambridge History of Literary Criticism, vol 1, Cambridge, 1989.

• Walter G. Leszl. Plato`sattitude to poetry and the fine arts, and the origins of aesthetics, 2006.

https://journals.openedition.org/etudesplatoniciennes/997

Heisenberg elmdə poetiklik və fəlsəfənin xüsusi rol oynadığını irəli sürür, elmi mövzuda, hadisədə dərin sirr, müəmma, anlaşılmazlıq olmasını poeziya və fəlsəfə ilə qarşılaşdırır, Platonu tez-tez yada salırdı: "Max.... kifayət qədər poetik deyildi (ona görə onu çox öyrənməmişəm və mənə təsir etməyib) - o mənada ki, Platon şübhəsiz şair idi" (*В. Гейзенберг. Физика... стр. 380*).



PROFESSOR HAMLET İSAXANLI VƏ DR. İSAXAN İSAXANLI AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİNİN TƏRCÜMƏ ENSİKLOPEDİYASINDA

PROFESSOR HAMLET ISAKHANLI AND DR. ISAKHAN ISAKHANLI INCLUDED IN THE AZERBAIJAN TRANSLATION ENCYCLOPEDIA PUBLISHED BY AZERBAIJAN UNIVERSITY OF LANGUAGES

Akademik Kamal Abdullanın baş redaktor və Əliş Mirzəllının redaktorluğu ilə Azərbaycan Dillər Universitetinin nəşr etdiyi ilk Azərbaycan Tərcümə Ensiklopediyasına bir sıra görkəmli peşəkar tərcüməçilər, tərcümə sənəti ilə məşğul olmuş alim və ədəbiyyat xadimləri ilə yanaşı, Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının və Xəzər Universitetinin İdarəetmə və tələbə işləri üzrə prorektoru Dr. İsaxan İsaxanlının da adları daxil edilmişdir.

Ensiklopediyada professor Hamlet İsaxanlının rus ədəbiyyatından Anna Axmatova, Baratinski, Jukovski, Qumilyov, Yesenin, Tütçev, Afanasiy Fet, ingilis ədəbiyyatından Bayron, Herriks və Uilyam Bleykdən, Dr. İsaxan İsaxanlının isə Blok, Bunin, Lermontov, Puşkin, Tolstoy və Yesenindən tərcümələrinin siyahısı verilmişdir.

The names of Professor Hamlet Isakhanli, founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, and of Dr. Isakhan Isakhanli, Vice-Rector for Administration and Student Affairs were included in the list of the prominent professional translators, scholars and literary figures involved in translation activity in the first Translation Encyclopedia of Azerbaijan published by Azerbaijan University of Languages with Academician Kamal Abdulla as an editor-in-chief and Alish Mirzalli as an editor.

Selected works by Anna Akhmatova (collection of poems), Baratinsky, Zhukovsky, Gumilyov, Yesenin, Tyutchev, Afanasy Fet from Russian literature; Byron, Herricks, William Blake from English literature translated by Prof. Isaxanli, and of Block, Bunin, Lermontov, Pushkin, Tolstoy and Yesenin translated by Dr. Isakhan Isakhanli were listed in the encyclopedia.



KÖNÜLLÜLÜK PROQRAMI BAŞA ÇATDI

VOLUNTARINESS PROGRAM IS OVER

Xəzər Universiteti Karyera mərkəzində Karyera Sərgisinə hazırlıq müddətində - mayın 1-dən 31-dək könüllü fəaliyyət göstərən tələbələrin Könüllülük Proqramının başa çatması ilə əlaqədar iyunun 8-də onlarla görüş keçirildi.

Görüşdə tələbələr təəssüratlarını paylaşaraq, belə tədbirlərdə digər tələbələrin də könüllü olaraq iştirakını tövsiyə etdilər.


Karyera mərkəzinin meneceri Səbinə Allahverenova Könüllülük Proqramında fəal iştirak edən tələbələrə –Toğrul Nəbiyev, Nigar Quliyeva, Aytac Ağayeva, Ziyadxan Tağıyev, Cavid Hüseynli (İqtisadiyyat və menecment fakültəsi), Rəsmin Məsimova (Təhsil fakültəsi) və Mustafa Həsənliyə (Mühəndislik və tətbiqi elmlər fakültəsi) təşəkkürünü bildirdi və onlara sertifikat təqdim etdi.

On June 8, final meeting in connection with the end of Voluntariness Program of the students, which functioned during preparation stage for Career Fair at the Career Center of Khazar University on May 1-31, took place.

Voluntary students shared their impression at the meeting and recommended other students to join such events as volunteers.

A special message of gratitude was addressed to active students of Voluntariness Program, Togrul Nabiyev, Nigar Guliyeva, Aytaj Aghayeva, Ziyadkhan Taghiyev, Javid Huseynli (the School of Economics and Management); Rasmin Masimova (the School of Education); Mustafa Hasanli (the School of Engineering and Applied Sciences).

Sabina Allahverdanova, Manager of Career Center, expressed her thanks to the volunteers for their hard work and presented them with certificates.



XƏZƏR UNİVERSİTETİNİN KAMERA ORKESTRİ FHN-İN TƏDBİRİNDƏ

KHAZAR UNIVERSITY CHAMBER ORCHESTRA AT THE CEREMONY OF THE MINISTRY OF EMERGENCY SITUATIONS

İyunun 22-də Fövqəladə Hallar Nazirliyi (FHN) işçilərinin həmkarlar ittifaqı ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 və Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 100 illiyi münasibətilə Gəncə Regional Mərkəzində "Ümummilli lider Heydər Əliyev və Silahlı Qüvvələr" mövzusunda elmi-praktiki konfrans keçirib.

